RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 257 (8573) ÇƏRŞƏNBƏ AXŞAMI, 8 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İnkişafa söykənən Qələbə

## İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən güclü dövrünü yaşayan Azərbaycan işğalçını cəzalandıraraq ərazi bütövlüyünü bərpa etdi

Müasir tariximizin ən şərəfli səhifəsi olan Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələndi. Bu müharibədən qalib çıxan xalqımız öz haqqı uğrunda əvvəldən axıra kimi ləyaqətlə, inamla mübarizə apardı. 44 gün davam edən hərbi əməliyyatlarla pozulmuş hüquqlarını bərpa edən Azərbaycan tək Ermənistana deyil, dünya erməniliyinə sağalmaz zərbə vurdu.

### Ermənistan təcavüzkar siyasətin qurbanıdır

Hər bir tarixi dövr üçün müharibədə qalib gəlməyin şərtləri var. Hətta 20-30 il əvvəlin şərtləri ilə bu günün tələbləri kəskin fərqlənir. Təsadüfi deyil ki, Azərbaycanın 44 günlük müharibədə qalib gəlməsinin əsas şərtlərindən biri yerində sayan Ermənistandan fərqli olaraq hər bir sahədə inkişafı, irəli getməsi, dövrün tələblərinə uyğun yüksəlişi idi.

Ermənistanla bağlı bütün siyasi dairələrdə birmənalı şəkildə ümumiləşən qənaətlərdən biri odur ki, bu ölkə və onun xalqı öz işğal siyasətinin, erməni millətçilərinin əsrlərdir formalaşdırdıqları və indi də davam etdirdikləri xəstə ideologiyanın qurbanıdır. Bu siyasətə uyğun olaraq ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan torpaqlarını işğal edən Ermənistanın hərbi-siyasi dairələri, o cümlədən Fransa kimi dövlətlərin timsalında dünya erməniliyi artıq hər şeyin bitdiyini, işğal olunmuş torpaqların zamanla erməni əraziləri kimi tanınacağını düşünürdülər. Ötən əsrin 90-cı illərinin sonlarından isə Ermənistanda hakimiyyət müharibə cinayətkarlarının əlinə keçdi. Tarix sübut edir ki, hərbi xuntaların hakimiyyətdə olduğu cəmiyyətlər yeniliklərdən və inkişafdan məhrumdurlar. Elə buna görə Ermənistanın hərbi-siyasi rəhbərliyi bu illərdə yalnız ölkəsi və ordusu haqqında mif yaratmaqla məşğul olub, büdcəsini isə işğal olunmuş Azərbaycan ərazilərinin talan edilməsi və diasporun yardımı hesabına doldurub. Ona görə Ermənistanın bu günü ilə ötən əsrin 90-cı illəri arasında demək olar ki, fərq yoxdu.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan müharibəni deyil, döyüşü uduzmuşdu. 1994-cü ildə imzalanan atəşkəs müharibənin bitməsi deyildi. O illərdən Heydər Əliyevin başlatdığı siyasət Azərbaycanda gələcək inkişafın təməlini qoydu. İslahatlar, neft kontraktları Azərbaycanı getdikcə daha güclü dövlət etdi və təbii ki, bu amillər ölkənin beynəlxalq nüfuzunun artmasında, mövqelərinin möhkəmlənməsində, həqiqətlərinin dünya tərəfindən tanınmasında böyük rol oynadı.

### Düşmən məğlub edilərək torpaqlarımızdan qovuldu

Bu siyasətin respublikamızda hansı dəyişikliklərlə əlamətdar olduğu ötən 17 ilin siyasi, iqtisadi və sosial mənzərəsinin fonunda daha aydın görünür. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tarixinin ən qüdrətli dövlətinə çevrilməsi bu günümüzün əsas reallığıdır. İlham Əliyevin düşünülmüş, əsaslandırılmış siyasəti nəticəsində dövlətimiz hər il əvvəlki ildən daha möhtəşəm nailiyyətlərə imza atdı və hazırda da atır.

Azərbaycanı tarixin ən güclü dövlətinə çevirən səbəblər həm də müstəqil siyasətin təzahürləri kimi çıxış edən faktorlardır.

Ardı 2-ci səh.

# İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Mən sizi ürəkdən salamlayıram. Şadam ki, siz Azərbaycana səfər edirsiniz. Müharibədən sonra Azərbaycana səfər edən ilk Avropa nümayəndə heyətisiniz. Yəqin ki, bu, təsadüfi deyil, çünki İtaliya ilə Azərbaycan arasındakı əlaqələr çox sürətlə inkişaf edir və bu gün ən yüksək səviyyədədir. Hesab edirəm ki, siyasi əlaqələr ən yüksək səviyyədədir. Mənim bu ilin əvvəlində İtaliyaya etdiyim dövlət səfəri bunun bariz nümunəsidir. Səfər zamanı bir çox önəmli sənədlər imzalanmışdır. Onların arasında Çoxölçülü Strateji Tərəfdaşlıq haqqında sənəd xüsusi yer tutur. Bu sənəd bizim strateji tərəfdaşlığımızı bir daha təsdiqlədi. Səfər zamanı həm Prezident, həm Baş nazirlə görüşlərim əsnasında bir çox önəmli məsələlər müzakirə olundu. Eyni zamanda Senatın və Nümayəndələr Palatasının rəhbərləri ilə mənim görüşlərim də çox gözəl keçdi.

Bildiyiniz kimi, iki il bundan əvvəl İtaliya Prezidenti cənab Mattarella Azərbaycanda rəsmi səfərdə idi. Bu səfərlər ikitərəfli əlaqələrimizin çox möhkəm zəmində olmasını göstərir. Bu gün İtaliya-Azərbaycan əlaqələri həm siyasi, həm iqtisadi, həm bütün başqa sahələrdə çox uğurla inkişaf edir. Siz də bilirsiniz ki, İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Keçən il ticarət dövriyyəmiz 6 milyard dollara çatmışdır. Bunun böyük hissəsi enerji resurslarına aiddir. Amma mən hesab edirəm ki, gələcək illərdə qeyri-neft sektoru da bizim aramızda xüsusi çəkiyə malik olacaq. Energetika sektoruna gəldikdə, bildiyiniz kimi, yaxın gələcəkdə TAP layihəsi istismara veriləcək və şübhəsiz ki, bu, İtaliya-Azərbaycan əlaqələrini daha da möhkəmləndirəcək.

Ardı 2-ci səh.

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bir sıra hərbi qulluqçularına “general-mayor” ali hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına “general-mayor” ali hərbi rütbəsi verilsin:

polkovnik Ağamir Əzizxan oğlu Sultanova
polkovnik Anar Təvəkkül oğlu Kərimova
polkovnik Namiq Sərəfruz oğlu İslamzadəyə
polkovnik Zaur Sabir oğlu Məmmədova.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2020-ci il*

# “Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1991, № 9-10, maddə 150) 19-cu maddəsinin üçüncü hissəsinin birinci cümləsində “əlillərin” sözü “əlilliyi olan şəxslərin” sözləri ilə və ikinci cümləsində “əlilin” sözü “əlilliyi olan şəxsin” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 noyabr 2020-ci il*

# Ə.N.Nağıyevə general-polkovnik ali hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağı oğlu Nağıyevə general-polkovnik ali hərbi rütbəsi verilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2020-ci il*

# O.S.Sultanova general-polkovnik ali hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi Orxan Sedyar oğlu Sultanova general-polkovnik ali hərbi rütbəsi verilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2020-ci il*




# Azərbaycan ayrılmaz hissəsi olan Naxçıvana yeni nəqliyyat damarı açır

Bu il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin imzaladıqları Bəyanatın 9-cu bəndində göstərilir ki, bölgədəki bütün iqtisadi nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir.

Ardı 2-ci səh.

# Milli Məclisin növbəti plenar iclasında Azərbaycanda hərbi vəziyyətin ləğv olunması məsələsinə baxılacaq

Dekabrın 11-də Milli Məclisin növbəti plenar iclası keçiriləcək. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, plenar iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il dekabrın 12-də saat 00:00-dan Hərbi vəziyyətin ləğv olunması haqqında Fərmanının təsdiq edilməsi barədə Milli Məclisin Qərarına baxılacaq.

İclasda Hesablama Palatasının sədrinin təyin edilməsi barədə məsələ də müzakirə olunacaq.

Deputatlar, həmçinin Azərbaycan Respublikasının “Mülki Məcəlləsində”, “Əmanətlərin tam sığortalanması haqqında”, “Əmanətlərin sığortalanması haqqında”, “Əmək Məcəlləsində”, “Təhsil haqqında”, “Bədən tərbiyəsi və idman haqqında”, “Peşə təhsili haqqında” və “Ümumi təhsil haqqında” qanunlarda, “Gömrük Məcəlləsində”, “Vergi Məcəlləsində” və Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi”ndə, “Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanunlarının layihələrini birinci oxunuşda müzakirə edəcəklər.



# Ermənistan vətəndaş müharibəsinə gedir

## Müxalifət hakimiyyətə qarşı mübarizəni qiyama çevirməyə çağırış etdi

Bu günlərdə Ermənistanda siyasi qarşıdurmanın daha da dərinləşməsi, müxalifətlə hakimiyyət arasında ziddiyyətlərin kəskinləşməsi müşahidə olunur. Baş nazir Nikol Paşinyanın istefası tələbi ilə Yerevanda etiraz aksiyaları davam edir.

Ardı 6-cı səh.

# İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır

*Əvvəli 1-ci səh.*

Bizim humanitar sahə ilə bağlı da böyük planlarımız var və artıq bir çox reallaşan layihələrimiz var. İtaliyaya dövlət səfərim çərçivəsində, eyni zamanda, təhsil sahəsində əməkdaşlıq müzakirə olundu. İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı razılığa gəlmişik. Bakıya qayıdandan sonra mənim tərəfimdən bu məsələ ilə bağlı müvafiq göstərişlər verilmişdir. Hesab edirəm ki, yaxın gələcəkdə universitet üçün bina da inşa ediləcək. Mən bu məsələni diqqətimdə saxlayıram və mənə müntəzəm olaraq bu məsələ ilə bağlı məlumatlar verilir. Onu da bildirməliyəm ki, mənə verilən məlumat əsasında orada bir neçə fakültə fəaliyyət göstərəcək. O siyahıya baxanda gördüm ki, orada memarlıq fakültəsi yoxdur və təklif etdim ki, bu da əlavə olunsun. Çünki İtaliya memarlığı ümumbəşəri dəyərdir və ölkəmizdə geniş vüsət almış tikinti sektorunun əlbəttə ki, müasir görkəmi olmalıdır. Əlbəttə, İtaliya-Azərbaycan Universitetində təhsil alacaq gənclər iki ölkə arasındakı əlaqələrə xüsusi töhfə verəcəklər.

Mən, eyni zamanda, sizə təşəkkürümü bildirmək istəyirəm ki, siz həm Gəncəyə, həm Ağdama səfər etmisiniz, Ermənistan dövlətinin törətdiyi hərbi cinayətləri görmüsünüz. Ermənistan tərəfindən törədilmiş hərbi cinayətlər göz qabağındadır. Döyüş meydanında məğlubiyyətə uğrayarkən Ermənistan mülki vətəndaşları atəşə tutub. Gəncəni Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutmuşdur. Bu, hərbi cinayətdir və bu cinayətə görə Ermənistan rəhbərliyi cavab verəcək. Müharibə zamanı 94 mülki şəxs həlak olmuşdur, 400-dən çox yaralanmışdır. Ballistik raketlərlə bu zərbə təsadüfi xarakter daşımırdı, məqsədyönlü şəkildə məhz mülki vətəndaşların yaşadığı məkana gecə vaxtı istiqamətləndirilmişdir ki, daha çox qurbanlar olsun. Ağdam şəhərini də gördünüz. Daha doğrusu, artıq şəhərdən bir şey qalmayıb, orada bütün binalar dağıdılıb. Bu, Ermənistan faşizminin eybəcər sifətini göstərən cinayətdir. Onlar hesab edirdilər ki, azərbaycanlılar bu torpaqlara heç vaxt qayıtmayacaqlar. Amma biz qayıtmışıq, döyüşə-döyüşə onları torpaqlarımızdan qovduq. Onlar bizim qabağımızda diz çökdülər.



İndi ölkəmizin yeni dövrü başlayır, biz bütün o bölgələri yenidən quracağıq. Artıq ilkin addımlar atılır, ilkin infrastruktur layihələrinə start verilib. Amma demək olar ki, Ağdamda gördüyünüz mənzərə azad edilmiş bütün torpaqlarda müşahidə olunur. Füzuli şəhərində də bir dənə salamat bina qalmayıb, Cəbrayıl şəhərində də. Zəngilan, Qubadlı eyni vəziyyətdədir. Kəlbəcər və Laçın rayonlarında Ermənistan dövləti qanunsuz məskunlaşma siyasəti aparmışdır. Bu da hərbi cinayət sayılır, Cenevrə Konvensiyalarına zidd olan bir addımdır. Ona görə bu rayonlarda bəzi yaşayış məntəqələrində bəzi evlər qalıb. Orada ermənilər yaşayırdılar. Ancaq noyabrın 10-dan dekabrın 1-nə qədər - o vaxt çərçivəsində onlar bu bölgələri tərk etməli idilər - onlar orada da vəhşilik törətdilər, evləri yandırdılar, sökdülər. Halbuki o evləri onlar yox, o vaxta qədər - 30 il bundan əvvəl orada yaşamış azərbaycanlılar tikmişdilər. Meşələri yandırdılar, ağacları kəsdilər, yəni, dünyanın gözü qarşısında vəhşilik törətdilər. Beynəlxalq media qurumları da bu barədə reportajlar hazırlayıb mətbuata vermişlər. Bütün dünya indi gördü ki, Azərbaycan hansı vandallarla üz-üzə qalmışdır və bu vandallara qarşı təkbaşına müharibə apararaq öz ərazi bütövlüyünü bərpa etmişdir.

İndi bərpa dövrü başlayır, genişmiqyaslı quruculuq işləri aparılacaq. Əlbəttə ki, Azərbaycan şirkətləri, ilk növbədə, bu işlərdə iştirak edəcək və bizim üçün dost olan ölkələrin şirkətlərini də biz dəvət edəcəyik, daha doğrusu, artıq dəvət etmişik. Mən çox istərdim ki, İtaliya şirkətləri bu işlərdə, yəni, bərpa, yenidənqurma işlərində fəal iştirak etsinlər. İtaliya tərəfinə artıq bu təkliflər verildi. Yaxın günlərdə videokonfrans vasitəsilə ilkin təmaslar olacaq. Əlbəttə, bir daha demək istəyirəm ki, dost ölkələrin şirkətləri bu işlərdə iştirak edəcəklər. Əsl dostluq isə özünü çətin anlarda büruzə verir. Bizim üçün də bu müharibə, eyni zamanda, onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Biz dostluğu qiymətləndirən xalqıq. Sizin Azərbaycana səfəriniz bir daha onu göstərir ki, İtaliya doğrudan da Azərbaycanın əsl dostudur. Bir daha xoş gəlmisiniz.

İtaliya Deputatlar Palatasının sədr müavini **Ettore ROSATO** dedi:

- Cənab Prezident, bizi qəbul etdiyinizə görə sağ olun. Sizin ölkəniz üçün olduqca xüsusi əhəmiyyət kəsb edən belə bir dövrdə burada olmaqdan məmnunluq hissi duyuruq. Buna görə də Sizə olan dostluq hisslərimizi ifadə etmək üçün əslində, bu səfərə çoxdan hazırlaşırdıq. Dedik ki, belə bir əhəmiyyətli dövrdə biz mütləq Sizin ölkənizə gəlməliyik. Zati-aliləri, Sizin də söylədiyiniz kimi, bizim aramızdakı dostluq, onun əlamətləri son illərdə xüsusi olaraq öz təzahürünü tapıb. Əslində, ölkələrimiz arasındakı səfərlərə gəldikdə, bu səfərlər çox yüksək səviyyədə təşkil olunmuşdur. İtaliya Respublikası Prezidentinin Sizin ölkənizə rəsmi səfəri münasibətlərimizin inkişafında çox mühüm bir addıma çevrildi. Sizin də Romaya etdiyiniz dövlət səfəri də bizim tərəfimizdən strateji əhəmiyyət kəsb edən bir hadisə kimi qəbul olunur. Biz də Sizə dost olaraq bilirik ki, səfər çərçivəsində bir çox razılaşmalar və xüsusən də, strateji tərəfdaşlıq haqqında mühüm sənəd imzalanıb. Əslində, bunlar elə sazişlərdir ki, onlarda çox konkret öhdəliklər və olduqca vacib mahiyyət əks olunubdur.

Azərbaycan İtaliya üçün enerji daşıyıcılarının ilk ixracatçısıdır. Belə bir keşməkeşli vaxtlarda enerji təhlükəsizliyini etimad göstərib o ölkəyə həvalə edə bilirik ki, o ölkə ilə həqiqətən dostluq münasibətləri olsun. Biz bu dostluğu daha da gücləndirmək istəyirik və münasibətlərimizi daha da şaxələndirmək fikrindəyik.

* * *

İtaliya parlamentinin Deputatlar Palatasının sədr müavini Ettore Rosato Azərbaycanın münaqişədə həyatını itirən mülki şəxslərinə görə başsağlığı verdi, Gəncə və Ağdama səfərlərinə toxundu. O qeyd etdi ki, 30 illik işğal dövründə Ağdamda törədilmiş viranəliyin şahidi olublar. “Hətta inanmaq belə çətin idi ki, burada nə zamansa insanlar yaşayıb”, - deyə vurğuladı.

Ettore Rosato Prezident İlham Əliyevə İtaliya Deputatlar Palatası və İtaliya Senatının sədrlərinin salamlarını çatdırdı.

Sonda xatirə şəkli çəkdirildi.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Azərbaycan Ordusunun işğal altındakı torpaqlarını azad etmək üçün həyata keçirdiyi 44 günlük əks-həmlə əməliyyatında dünyanı heyran qoyan təqdirəlayiq liderlik nümunəsi göstərdiyinizi səmimiyyətlə vurğulamaq istəyirəm. Sizin liderliyinizdə Azərbaycan Silahlı Qüvvələrinin tarixə qızıl hərflərlə yazılan uğuru, xalqın dövlətinin və ordusunun arxasında sıx dayanması sarsılmaz mübarizə ruhunu bir daha bütün dünyaya göstərdi. Bu əməliyyat Azərbaycan Ordusunun gücünü bütün dünyaya nümayiş etdirən qəhrəmanlıq salnaməsidir. Sizin şəxsinizdə qardaş vətənimiz Azərbaycanı öz adımdan və ölkəm adından səmimi-qəlbdən təbrik edirəm.

Hörmətli cənab Prezident!

Hər gün inkişaf etməkdə olan Azərbaycanın Sizin güclü liderliyinizlə mühüm nailiyyətlərə imza atmasının şahidi oluruq. Qəlbləri birlikdə döyünən ölkələrimizdəki kədəri də, sevinci də bərabər hiss edirik. “Bir millət, iki dövlət” prinsipi ilə strateji əlaqələrimizi daha da gücləndirmək işində hədəfimiz eynidir.

Rəhbərlik etdiyim “Sur Yapı” firması həm Türkiyədə, həm də Avropada mənzil inşaatı sahəsində fəaliyyətini davam etdirir. Əsrin dörddəbirindən də çox müddət qədər təcrübəyə malik olan firmamız inşaat sektorunun qabaqcıllarındandır. Antalyada Ətraf Mühit və Şəhərsalma Nazirliyi və Antalya Böyükşəhər Bələdiyyəsi ilə birlikdə inşa etdiyimiz Antalya layihəsi bu gün Avropanın ən böyük şəhərsalma layihəsi hesab edilir. Təxminən 70 min nəfərin yaşayacağı 1,3 milyon kvadratmetrlik əraziyə və 2,5 milyon kvadratmetr tikinti sahəsinə malik “ağıllı şəhər”in inşası ekoloji yanaşmalar əsasında həyata keçirilmişdir. Antalya layihəsi həm şəhərsalma modeli, həm də “ağıllı şəhər” funksiyaları ilə bütün dünyada nümunə təşkil edir. Layihəmiz ətraf mühitin mühafizəsinə xidmət edən “ağıllı texnologiyalar”la milli və beynəlxalq səviyyədə çoxlu sayda mükafatın sahibi olub. Antalya layihəmizlə Türkiyədə bütöv bir şəhər miqyasında layihə həyata keçirən yeganə şirkətik.

Digər tərəfdən, enerji sahəsində də aktiv fəaliyyət göstəririk. Əsasən su və külək enerjisi olmaqla bərpa olunan enerji stansiyalarımızda elektrik enerjisi istehsal etməklə yeni sərmayələr də yatırırıq.

Azərbaycanın işğaldan azad etdiyi Qarabağın və ətraf rayonların bərpasında, ziyanın aradan qaldırılmasında və bölgənin yenidən inşasında əməkdaşlıq və həmrəyliyimiz çərçivəsində üzərimizə düşən vəzifəni yerinə yetirmək niyyətimizi xüsusilə vurğulamaq istəyirəm.

Fürsətdən istifadə edərək dost və qardaş Azərbaycan xalqına bir daha cansağlığı, xoşbəxtlik, sülh və rifah diləyirəm.

*Dərin hörmətlə,*

***Z.Altan ELMAS,***
***“Konutder” İdarə Heyətinin sədri,***
***“Sur Yapı” İdarə Heyətinin sədri***

# Azərbaycan ayrılmaz hissəsi olan Naxçıvana yeni nəqliyyat damarı açır

### Prezident İlham ƏLİYEV: “Rusiya, Azərbaycan, Türkiyə, İran və əgər istəsə, Ermənistan bu dəhlizə qoşula bilər”

*Əvvəli 1-ci səh.*

Bənddə, həmçinin bildirilir ki, nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək.

Uzun illərdir davam edən sülh danışıqlarında belə açıq-aydın bir müddəa olmayıb. Yəni deyilirdi ki, bütün kommunikasiyalar açılacaq. Lakin Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən dəhliz haqqında heç bir söz getmirdi.

Sözügedən bəyanata 9-cu bənd məhz Prezident İlham Əliyevin təkidi ilə salınıb. Burada konkret olaraq göstərilir ki, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında dəhliz yaradılır və bu dəhlizin təhlükəsizliyini Ermənistan yox, Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Bu da dəhlizin tam təhlükəsiz olacağı deməkdir. Eyni zamanda daha bir məsələ - tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası məsələsi həll olundu. Yəni bu məsələni tam və gələcəyə hesablanmış çərçivədə həll etmək üçün əlavə bənd salındı. Dekabrın 1-də Azərbaycan xalqına müraciətində dövlət başçısı demişdir: “Əgər lazım olsa, iki dəhliz olmalıdır. Bu, bizim tarixi nailiyyətimizdir. Biz Naxçıvanı həm mühasirədən çıxarırıq, eyni zamanda, yeni bir nəqliyyat damarını açırıq. Deyə bilərəm ki, bütün ölkələr buradan ancaq faydalanacaq. Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla birləşir. Azərbaycan Türkiyə ilə birləşir. Rusiya, Azərbaycan, Türkiyə, İran və əgər istəsə, Ermənistan bu dəhlizə qoşula bilər. Beləliklə, bölgədə beştərəfli yeni əməkdaşlıq platforması yaradıla bilər. Mən bu fikrimi artıq həm Rusiya, həm Türkiyə prezidentlərinə çatdırmışam. Həm Rəcəb Tayyib Ərdoğan, həm Vladimir Putin buna müsbət yanaşıblar”.



Bu bənddə göstərilən məsələlər arasında bizim üçün bir nömrəli məsələ Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək və eyni zamanda Azərbaycanla Türkiyə arasında yeni bir nəqliyyat dəhlizi yaratmaqdır. Bir neçə il əvvəl istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu Türkiyə ilə Azərbaycan arasında dəmir yolları vasitəsilə bağlantı yaratmışdır. Bəyanatda deyilən layihənin gerçəkləşməsi ilə yeni bir bağlantı da yaradılacaq və bundan beş ölkə fayda götürə biləcək. Regional təhlükəsizlik və əməkdaşlıq üçün isə bu, faydalı və gərəkli şərtdir.

Artıq “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti müvafiq göstəriş alıb. Mənfur düşmənin söküb dağıtdığı Horadiz-Zəngilan dəmir yolunun vəziyyətinin təhlili və ilkin hesablamalar aparılacaq. Rusiya Federasiyası nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində, o cümlədən dəmir yollarının bərpası məsələləri də müzakirə olunub.

Bunun səbəbini Prezident İlham Əliyev belə izah etmişdir: “Ermənistan dəmir yolları Rusiya dəmir yollarına məxsusdur, 100 faiz. Ona görə biz bu məsələni Ermənistanla yox, Rusiya ilə müzakirə edirik. Çünki Ermənistanda nə var ki, Ermənistanın özünün olsun? Ermənistan beynəlxalq münasibətlərin subyekti deyil, obyektidir. Nəyə görə? İşğala görə. O tarixi şansı itirib, müstəqil ölkə ola bilməyib, iqtisadi imkanlarını itirib, işğala görə. Nə qazandı? Heç nə. Bu vaxta qədər bütün lazımi tədbirləri gördük. Nəqliyyat, energetika, iqtisadi əməkdaşlıq - bütün layihələri başa çatdırdıq. Dekabrın sonunda “Cənub qaz dəhlizi” artıq tam istifadəyə verilir. Onun son hissəsi olan TAP istifadəyə verilir. Ermənistan, haradasan? Kənarda qalmısan. Bu enerji dəhlizi Ermənistandan yan keçir. Kim keçirdib? Biz”.

Ermənistan öz işğalçılıq siyasətinə, xəyanətkar xislətinə görə Azərbaycanın həyata keçirdiyi digər regional və qlobal layihələrə də dalandan baxır. Hələ Bakı-Tbilisi-Ceyhan neft kəmərinin marşrutu müəyyən edilərkən aparıcı Qərb ölkələri bu xəttin Ermənistandan yan keçməsindən çox narahat idilər. Azərbaycana təzyiq etmək üçün ortaya şərtlər qoyurdular. Erməni lobbisi və ermənipərəst xarici dairələr kampaniyalar təşkil edərək kəmərin tikintisi üçün kredit ayıracaq beynəlxalq maliyyə qurumlarına təsir etməyə çalışırdılar.

Bakı-Tbilisi-Ceyhan neft kəməri, daha sonra Bakı-Tbilisi-Ərzurum, TANAP qaz kəmərləri də Ermənistandan yan keçdi. Artıq Avropaya qaz çatdırırıq. Halbuki Ermənistan bu layihərdə iştirak edə bilərdi, tranzit haqqı alardı və qazandığı vəsaiti ölkəsinin inkişafına, xalqının dolanışığına xərcləyərdi. Əlbəttə, başında ağlı olsaydı, işğalçılıqla, terrorçuluqla, talançılıqla məşğul olmasaydı...

Bu gün Azərbaycan-Gürcüstan-Türkiyə enerji dəhlizi uğurla fəaliyyət göstərir. Rusiya-Azərbaycan-İran enerji dəhlizi də həmçinin. Rusiya-Azərbaycan-İran nəqliyyat dəhlizi vasitəsilə daşınan yüklərin həcmi təqribən 30-40 faiz artıb. Ermənistan isə 20 ildir “Şimal-Cənub nəqliyyat dəhlizi” üzərində işləyir və hələ də heç nəyə nail olmayıb.

Azərbaycan mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması yaradıb və nəticədə dünyaya səs salan layihələr həyata keçirib. Bölgələrdə ən müasir infrastruktur yaradıb. Ölkəmizin ayrılmaz hissəsi olan Naxçıvana yeni yolların açılması da uğurla tamamlanacaq, regional əməkdaşlıq və təhlükəsizlik üçün mühüm şərtə çevriləcək.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# İnkişafa söykənən Qələbə

### İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən güclü dövrünü yaşayan Azərbaycan işğalçını cəzalandıraraq ərazi bütövlüyünü bərpa etdi

*Əvvəli 1-ci səh.*

Müstəqillik yalnız müstəqil dövlətə sahib olmaq deyil. Müstəqilllik həm də dövlətin yürütdüyü siyasətdə, beynəlxalq münasibətlərdə sərbəstliyin olması deməkdir. 2005-ci ildən öz neftini Avropaya çatdıran Azərbaycanın indi Xəzərdən hasil etdiyi mavi qazı dünya bazarlarına çıxarması, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilməsi, bütün beynəxalq məsələlərdə respublikamızın öz mövqeyinin ifadə olunması müstəqil siyasətin göstəriciləridir.

Güclənən və inkişaf edən Azərbaycan günlərin birində torpaqlarını güc yolu ilə azad edə biləcəyini heç vaxt gizlətmədi. Artıq Ermənistana və dünya erməniliyinə da agah idi ki, əgər Azərbaycan ən çətin vaxtlarında onların şərtlərini yaxına buraxmayıbsa, güclənikdən sonra istənilən vasitə ilə ərazilərini azad edəcək. İlham Əliyevin qətiyyətli siyasəti və hücum diplomatiyası hər addımda Ermənistanın işğal siyasətini laxladır, ifşa edirdi. Ermənistanın son hərbi təxribatları isə nəticə etibarilə Azərbaycanın gözlədiyi tarixi fürsəti təmin etdi və işğalçı layiqli cəzasını alaraq torpaqlarımızdan qovuldu.

#### Bu zəfər Azərbaycanın beynəlxalq mövqelərini və nüfuzunu yüksəltdi

Sentyabrın 27-dən Dağlıq Qarabağda başlanan hərbi əməliyyatlar ilk gündən iki ölkənin atəşkəs dövründə inkişafı ilə fərqi ortaya qoydu. Bu inkişafın təsdiqi ilk növbədə Azərbaycanın döyüş əməliyyatlarını ən müasir vasitələrlə həyata keçirməsi oldu. Hətta Ermənistanın son dərəcədə möhkəmləndirdiyi səngərlər, təbii istehkam rolunu oynayan yüksəkliklər də işğalçı ordunu xilas edə bilmədi.

Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlının ardınca Şuşanın alınması Vətən müharibəsində Azərbaycanın hərbi qələbəsinin zirvəsi oldu. Buna qədər təxminən 42 gün müddətində Ermənistanın aidiyyəti orqanları ölkə ictimaiyyətini aldatmaqla məşğul idi. Ötən 26 ildə yaratdıqları mif kimi müharibə günlərində də işğalçılar Ermənistan ordusunun guya Azərbaycana qarşı uğurla vuruşduğunu öz ictimaiyyətinə sırıdılar. Döyüşlərdəki məğlubiyyəti isə taktiki yerdəyişmə kimi qələmə verməklə ört-basdır etməyə çalışdılar.

Noyabrın 10-da Ermənistanın baş nazirinin imzaladığı kapitulyasiya aktından sonra ölkənin hakimiyyət orqanları müharibədəki məğlubiyyəti rəsmən etiraf etdilər. Azərbaycan torpaqlarının bir hissəsini döyüş yolu ilə azad etdi. Kapitulyasiya aktına əsasən, Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxarması ilə bağlı öhdəlik götürdü. Artıq bu rayonların hər birində Azərbaycan bayrağı dalğalanır və onların azad edilməsi ordumuzun döyüş meydanlarındakı şanlı qələbələrinin nəticəsidir. Bu qələbələrin nəticəsi kimi Ermənistan rəhbərliyi Prezident İlham Əliyevin şərtlərini yerinə yetirməyə məcbur oldu.

Nəiniki müharibənin davam etdiyi 44 gün ərzində, bütövlükdə ötən 30 ildə yalanlarla idarə olunan Ermənistan tarixinin ən acınacaqlı, ən utancverici dövrünü yaşayır. Bu ölkənin vətəndaşları işğal siyasətinin qurbanına çevriliblər və üzləşdikləri əzaba və rüsvayçılığa boyun əyməkdən başqa yolları yoxdur. Xəstə erməni təfəkkürünün, özgə torpaqlarına göz dikməyin sonu başqa cür ola da bilməzdi.

Prezident İlham Əliyevin yürütdüyü siyasətin nəticəsi olaraq Azərbaycan regionun lider dövlətinə çevrilib. Bu qələbə isə respublikamızın nəinki Cənubi Qafqazda, həmçinin bütün dünyada mövqelərini daha da möhkəmləndirdi, nüfuzunu yüksəltdi. İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən güclü dövrünü yaşayan Azərbaycan öz maraqlarını qətiyyətlə təmin etdi. Ermənistan isə bütün tarixboyu işğal siyasətinin ağır nəticəsi olan rüsvayçılıq və məğlubiyyət damğası ilə yaşamalı olacaq.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

## Azərbaycan Respublikası Prezidentinin “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, “Taxıl haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 15 iyul tarixli 370 nömrəli, “Üzümçülük və şərabçılıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2002-ci il 29 yanvar tarixli 667 nömrəli, “Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2002-ci il 24 avqust tarixli 757 nömrəli, “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə” 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli, “Taxıl haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 370 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında” 2008-ci il 22 aprel tarixli 745 nömrəli, “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2008-ci il 30 dekabr tarixli 756-IIIQD nömrəli qanununun tətbiq edilməsi haqqında” 2009-cu il 9 fevral tarixli 49 nömrəli və “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, “Balıqçılıq haqqında”, “Yeyinti məhsulları haqqında”, “Taxıl haqqında”, “Üzümçülük və şərabçılıq haqqında”, “Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında” və “Çayçılıq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1662-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 avqust tarixli 811 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 267 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 46) 2-ci hissəsi ləğv edilsin.

2. “Taxıl haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 370 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 510) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“2. Müəyyən edilsin ki:

2.1. “Taxıl haqqında” Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 6.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirirlər;

2.3. həmin Qanunun 6.5-ci, 8.5-ci, 9.1-ci maddələrində, 9.2-ci maddəsinin ikinci cümləsində, 9.4-cü, 11.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.4. həmin Qanunun 8.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir;

2.5. həmin Qanunun 15.2-ci və 15.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi həyata keçirir;

2.6. həmin Qanunun 11.2-ci maddəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur.”.

3. “Üzümçülük və şərabçılıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 yanvar tarixli 667 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 50; 2009, № 4, maddə 226; 2014, № 10, maddə 1208; 2017, № 1, maddə 50; 2018, № 5, maddə 903; 2020, № 4, maddə 418) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“2. Müəyyən edilsin ki:

2.1. “Üzümçülük və şərabçılıq haqqında” Azərbaycan Respublikası Qanununun 6.4-cü maddəsində, 14.16-cı maddəsinin ikinci cümləsində, 20.3-cü maddəsinin birinci cümləsində və 27.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 12.5-ci maddəsində, 14.1-ci maddəsinin ikinci cümləsində və 14.11-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin Qanunun 6.3-cü (uyğunluq sertifikatına münasibətdə), 10.2-ci maddələrində, 14.1-ci maddəsinin birinci cümləsində, 14.3-cü, 14.6-cı və 14.7-ci maddələrində müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi həyata keçirir;

2.4. həmin Qanunun 6.4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

2.5. həmin Qanunun 14.16-cı maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi nəzərdə tutulur;

2.6. həmin Qanunun 20.3-cü maddəsinin birinci cümləsində və 27.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;

2.7. həmin Qanunun 6.3-cü maddəsində (fitosanitar vəziyyətinə dair sertifikata münasibətdə) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi həyata keçirir;

2.8. həmin Qanunun 21.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.”.

4. “Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 757 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 477) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“2. Müəyyən edilsin ki:

2.1. “Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 7.1-ci maddəsinin ikinci cümləsində və 7.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin Qanunun 6.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər;

2.4. həmin Qanunun 6.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi həyata keçirir;

2.5. həmin Qanunun 8.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur.”.

5. “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 574; 2005, № 7, maddə 592; 2008, № 8, maddə 719; 2009, № 4, maddə 226, № 7, maddə 528; 2010, № 4, maddə 296; 2014, № 5, maddə 477, № 10, maddə 1218; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 361) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“1. Müəyyən edilsin ki:

1.1. “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin ikinci və üçüncü hissələrində, 8-ci maddəsinin beşinci hissəsinin birinci (hər üç halda) və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 6-cı maddəsinin dördüncü hissəsində, 7.4-cü maddəsində, 8-ci maddəsinin dördüncü hissəsində, 13-cü maddəsinin beşinci hissəsində, 16-cı maddəsinin səkkizinci hissəsində, 17-ci maddəsinin ikinci hissəsində, 19-cu maddəsinin üçüncü hissəsinin ikinci cümləsində, altıncı və yeddinci hissələrində, 20-ci maddəsinin birinci hissəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.3. həmin Qanunun 8-ci maddəsinin beşinci hissəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 19-cu maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir;

1.5. həmin Qanunun 20-ci maddəsinin birinci hissəsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir;

1.6. həmin Qanunun 6-cı maddəsinin birinci, ikinci hissələrində, üçüncü hissəsinin birinci cümləsində, 7.2-ci maddəsində, 8-ci maddəsinin birinci hissəsində, 11-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində, 16-cı maddəsinin üçüncü hissəsində və 21-ci maddəsinin onuncu abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi həyata keçirir;

1.7. həmin Qanunun 5-ci maddəsinin ikinci və üçüncü hissələrində və 8-ci maddəsinin beşinci hissəsinin birinci cümləsində (ikinci və üçüncü hallarda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;

1.8. həmin Qanunun 8-ci maddəsinin beşinci hissəsinin birinci cümləsində “qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur.”.

6. “Taxıl haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 370 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 745 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 259) 1-ci hissəsi ləğv edilsin.

7. “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2008-ci il 30 dekabr tarixli 756-IIIQD nömrəli qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 49 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 62) 2-ci hissəsi ləğv edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2020; 2018, № 5, maddə 896; 2020, № 4, maddə 405; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 sentyabr tarixli 1162 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-21-ci yarımbəndindən “texniki reqlamentlərdə və” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1012-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 16 aprel tarixli 1923 nömrəli, “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1348-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar bir sıra tədbirlər haqqında” 2018-ci il 10 dekabr tarixli 398 nömrəli, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, “Balıqçılıq haqqında”, “Yeyinti məhsulları haqqında”, “Taxıl haqqında”, “Üzümçülük və şərabçılıq haqqında”, “Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında” və “Çayçılıq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1662-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2019-cu il 19 avqust tarixli 811 nömrəli fərmanlarında dəyişiklik edilməsi və “Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” 2003-cü il 27 sentyabr tarixli 931 nömrəli, “Taxıl haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” 2003-cü il 23 oktyabr tarixli 959 nömrəli fərmanlarının ləğv edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, “Balıqçılıq haqqında”, “Yeyinti məhsulları haqqında”, “Taxıl haqqında”, “Üzümçülük və şərabçılıq haqqında”, “Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında” və “Çayçılıq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1662-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 avqust tarixli 811 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1012-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 aprel tarixli 1923 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 674) 4-cü hissəsi ləğv edilsin.

2. “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1348-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 398 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2555) 2-ci hissəsi ləğv edilsin.

3. “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, “Balıqçılıq haqqında”, “Yeyinti məhsulları haqqında”, “Taxıl haqqında”, “Üzümçülük və şərabçılıq haqqında”, “Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında” və “Çayçılıq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1662-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 avqust tarixli 811 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1394) aşağıdakı məzmunda 2.8-1-ci və 2.8-2-ci bəndlər əlavə edilsin:

“2.8-1. həmin Qanunun 10.4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

2.8-2. həmin Qanunun 12.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur.”.

4. “Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 931 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 482; 2009, № 4, maddə 226; 2018, № 5, maddə 930) ləğv edilsin.

5. “Taxıl haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 959 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 564; 2014, № 5, maddə 477; 2015, № 2, maddə 131; 2016, № 8, maddə 1384; 2017, № 5, maddə 836; 2018, № 5, maddə 931) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin “Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2003-cü il 4 avqust tarixli 907 nömrəli, “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2008-ci il 25 avqust tarixli 818 nömrəli, “Arıçılıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2009-cu il 14 aprel tarixli 82 nömrəli, “Arıçılıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə” 2009-cu il 30 oktyabr tarixli 173 nömrəli, “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə” 2010-cu il 24 may tarixli 267 nömrəli, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında” 2012-ci il 29 dekabr tarixli 800 nömrəli fərmanlarında dəyişiklik edilməsi və “Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” 2004-cü il 12 fevral tarixli 25 nömrəli Fərmanının ləğv edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında”, “Ekoloji təmiz kənd təsərrüfatı haqqında”, “Arıçılıq haqqında”, “Reklam haqqında” və “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1663-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 avqust 808 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. “Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 907 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 436; 2004, № 10, maddə 793; 2007, № 6, maddə 611; 2011, № 2, maddə 84) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. üçüncü abzasda “5.2-ci maddəsində” sözləri “5.2-ci və 9-cu maddələrində” sözləri ilə əvəz edilsin;

1.2. dördüncü abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

“həmin Qanunun 9-cu maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur.”.

2. “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli 818 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 8, maddə 725) 2-ci hissəsindən “11.3-cü,”, “13.3-cü,” və “,16.10-cu” sözləri çıxarılsın.

3. “Arıçılıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 82 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 227; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə “7.1-ci maddəsində” sözləri “6.5-ci, 7.1-ci və 18.2-ci maddələrində” sözləri ilə əvəz edilsin;

3.2. 2.2-ci bənddən “10-cu” sözləri çıxarılsın;

3.3. 2.3-cü bəndə “Nazirlər Kabineti,” sözlərindən sonra “5.0.2-ci maddəsi üzrə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi,” sözləri əlavə edilsin və həmin bənddən “5.0.12-ci,” sözləri çıxarılsın;

3.4. 2.6-cı bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.7-ci bənd əlavə edilsin:

“2.7. həmin Qanunun 6.5-ci və 18.2-ci maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur.”.

4. “Arıçılıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 173 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 786) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci və 1.3-cü bəndlər ləğv edilsin;

4.2. 1.2-ci bənddə “həmin Qanunun 19.4-cü maddəsində və” sözləri “Arıçılıq haqqında” Azərbaycan Respublikası Qanununun” sözləri ilə əvəz edilsin.

5. “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 267 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 396; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2017, № 5, maddə 833) 1.3-cü və 1.4-cü bəndləri ləğv edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1274; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2019, № 5, maddə 847) ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının 4.2-ci bəndinin on üçüncü abzasında “ərzaq” sözü “qida” sözü ilə əvəz edilsin.

7. “Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 25 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 63; 2009, № 4, maddə 226; 2018, № 5, maddə 904) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2020-ci il*

# Milli Məclisdə İtaliya Deputatlar Palatasının sədr müavininin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

Dekabrın 7-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan İtaliya parlamentinin Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, italiyalı qonaqları salamlayan Sahibə Qafarova bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında mövcud əlaqələrin dərinləşməsinə xidmət etdiyini deyib. Sədr qeyd edib ki, bu gün Azərbaycan və İtaliya iki yaxın dost, strateji tərəfdaşdırlar. Təqdirəlayiq haldır ki, tarixən qədim köklərə malik əməkdaşlığımız Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Əlaqələrimizin bu səviyyəyə çatmasında ölkə prezidentlərinin qarşılıqlı səfərləri, aparılan danışıqlar əhəmiyyətli rol oynayıb. Ölkələrimiz arasında imzalanmış sənədlər münasibətlərimizin möhkəm hüquqi bazasını təşkil edir.

Sahibə Qafarova qeyd edib ki, siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələrimiz yüksələn xətlə inkişaf etməkdədir. Siyasi dialoqun davamlılığı iqtisadi əməkdaşlığımızın daha da dərinləşməsinə öz müsbət təsirini göstərir. Heç də təsadüfi deyil ki, İtaliya Avropada Azərbaycanın ən mühüm ticarət tərəfdaşıdır. Təkcə ötən il ölkələrimiz arasında ticarət dövriyyəsi 6 milyard ABŞ dolları həcmində olub. Cari ilin yanvar-oktyabr aylarında isə bu göstərici 4,2 milyard ABŞ dolları təşkil edib. Mütəmadi olaraq biznes forumların keçirilməsi iqtisadiyyatın müxtəlif sahələrində əlaqələrin dərinləşməsinə xidmət edir.

Bu gün müstəqil Azərbaycan Avropanın enerji təhlükəsizliyi arxitekturasına öz töhfəsini verməkdədir. Təkcə neft deyil, TANAP və TAP kimi qaz layihələri də buna parlaq misaldır.

Görüşdə Milli Məclisin sədri ölkələrimiz arasında mədəni, humanitar, elm, təhsil sahələrində də əməkdaşlığımızın yüksək səviyyəsindən danışıb. Bildirilib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondunun prezidenti, ISESCO-nun və UNESCO-nun xoşməramlı səfiri kimi İtaliyada həyata keçirdiyi layihələr geniş ictimaiyyətə yaxşı məlumdur.

Söhbət zamanı sədr diqqətə çatdırıb ki, münasibətlərimizin inkişafında parlamentlər yaxından iştirak edirlər. Son illər Milli Məclislə İtaliya parlamentinin hər iki palatası arasında sıx əməkdaşlıq yaranıb. Qarşılıqlı həyata keçirilən yüksəksəviyyəli səfərlər bunun bariz nümunəsidir. Sevindirici haldır ki, bu gün ölkələrimizin parlamentlərində dostluq qrupları fəaliyyət göstərir. Bu qruplar arasındakı qarşılıqlı təmaslar təcrübə və informasiya mübadiləsi baxımından çox önəmlidir. Sahibə Qafarova qonaqların ölkəmizə səfərləri çərçivəsində Azərbaycanın Gəncə və Ağdam şəhərlərinə səfər etmələrini, onların Ermənistan tərəfindən törədilən hərbi cinayətlərlə yaxından tanış olmalarını yüksək qiymətləndirib. Bildirilib ki, 44 gün ərzində Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa edib.

Görüşdə Milli Məclisin sədri bütün dünyada pandemiyanın tüğyan etdiyi bir vaxtda italiyalı deputatların Azərbaycana səfərini yüksək qiymətləndirib.

İtaliya parlamentinin Deputatlar Palatasının sədr müavini Ettore Rosato ölkəsinin Cənubi Qafqazın bu bölgəsi ilə əlaqələrin inkişafına böyük önəm verdiyini söyləyib. Qonaq bildirib ki, onların Azərbaycana səfəri məhz ölkəmizə olan dostluq münasibətinin göstəricisidir. Siyasi müstəvidə ən yüksək səviyyələrdə davamlı olan dialoq parlamentlərarası münasibətlərimizdə də özünü göstərir. İtaliya Senatının və Deputatlar Palatasının müxtəlif siyasi partiyaları təmsil edən bir qrup üzvünün Azərbaycanın Gəncə və Ağdam şəhərlərinə səfərlərini də məhz bu baxımdan dəyərləndirmək lazımdır.

O, qeyd edib ki, Azərbaycanın dostu kimi onlar bölgə həqiqətlərini, burada gördüklərini İtaliya və dünya ictimaiyyətinə çatdırmaq üçün səylərini əsirgəməyəcəklər. Ettore Rosato vurğulayıb ki, onlar Avropa institutlarında Azərbaycanın mövqeyinin güclənməsinə hərtərəfli dəstək verəcəklər.

Görüşdə çıxış edən İtaliya Deputatlar Palatasının üzvü, İtaliya-Azərbaycan Dostluq Assosiasiyasının rəhbəri Rossana Boldi, italiyalı senatorlar Maria Rizzotti, Adolfo Urso, Deputatlar Palatasının üzvü Pino Kabras, İtaliya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azər Kərimli hər iki ölkənin qanunvericilik orqanları arasında əlaqələrimizin bu günü və gələcək inkişaf perspektivləri, həyatın digər sahələrində münasibətlərimizin daha da dərinləşməsi barədə öz fikirlərini bölüşüblər.

# İtaliya parlamentinin nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib



Azərbaycanda səfərdə olan İtaliya parlamentinin Deputatlar Palatasının və Senatın nümayəndə heyəti dekabrın 7-də Şəhidlər xiyabanını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə güllər düzüblər.

Nümayəndə heyətinin üzvlərinə Şəhidlər xiyabanının tarixi və Bakıda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Azərbaycan-İtaliya əlaqələrindən məmnunluq ifadə edilib

Dekabrın 7-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan və İtaliya arasında mövcud olan sıx dostluq və əməkdaşlıq münasibətlərindən məmnunluq ifadə edən nazir Ceyhun Bayramov cari il fevralın 19-21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasına tarixi dövlət səfərini xatırladıb. Nazir səfər zamanı imzalanmış "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsinə dair Birgə Bəyannamə" ilə tərəflərin bir-birilərini strateji tərəfdaş kimi qəbul etdiklərini, bununla siyasi, müdafiə, təhlükəsizlik, iqtisadi, ticarət, enerji, nəqliyyat, innovasiyalar, elm, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığı daha da gücləndirmək yolu ilə qarşılıqlı istəklərini ortaya qoyduqlarını bildirib.

C.Bayramov Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə nəticələnən 44 günlük Vətən müharibəsi barədə də qarşı tərəfə ətraflı məlumat verib, uzun illər ərzində Azərbaycanın və ümumilikdə bölgənin təhlükəsizliyinə ciddi təhdid olan Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı İtaliyanın Azərbaycanın haqq mövqeyinə dəstək verdiyini minnətdarlıqla vurğulayıb.

Sədr müavini Ettore Rosato görüşə görə təşəkkürünü bildirib, Azərbaycana xüsusi rəğbət bəslədiyini, belə ki, COVID-19 pandemiyasına baxmayaraq, böyük nümayəndə heyəti ilə ölkəmizə səfər etdiyini, səfər çərçivəsində Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış Ağdam şəhərini, habelə Ermənistan hərbi qüvvələri tərəfindən raket atəşinə tutulmuş Gəncəni ziyarət etdiklərini söyləyib. Azərbaycanın mövqeyinin ədalətli olduğunu vurğulayan sədr müavini İtaliyanın Azərbaycan üçün dost ölkə olduğunu xüsusi qeyd edib. Eyni zamanda Ettore Rosato İtaliya hökumətinin hər zaman Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəklədiyini bildirib.

Görüş zamanı İtaliya və Azərbaycan parlamentlərinin xarici əlaqələr komitələri və dostluq qrupları arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edilib.

# İtaliya parlamentinin nümayəndə heyəti Ağdamda erməni vəhşiliklərinin şahidi olub

Dekabrın 6-da İtaliya parlamentinin Deputatlar Palatasının və Senatın birgə nümayəndə heyəti Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər edib.







AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, səfərin məqsədi nümayəndə heyətini Ermənistan silahlı qüvvələrinin Ağdam şəhərində törətdiyi vəhşiliklər, cinayət izləri ilə tanış etmək olub.

Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyətini Milli Məclisin Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azər Kərimli, Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə və başqaları müşayiət ediblər.

Nümayəndə heyəti Ağdam şəhərində Ermənistanın törətdiyi müharibə cinayətlərinin nəticələri ilə tanış olublar. Onlar burada ermənilərin 27 il ərzində törətdikləri vandalizmi öz gözləri ilə görüblər.

Əvvəlcə Ağdam məscidinə gələn qonaqlara məlumat verilib ki, 1993-cü il iyulun 23-də mühüm coğrafi mövqedə yerləşən Ağdam rayonunun 77 faizini - bir şəhər, 1 qəsəbə, 79 kəndi işğal edən erməni silahlı dəstələri ərazidə görünməmiş vandalizm həyata keçiriblər. Ermənilər Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən varlı rayonu olan Ağdamın yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Diqqətə çatdırılıb ki, digər tarixi abidələrimiz kimi, XIX əsrin yadigarı olan Ağdam məscidi də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra talan olunub, yandırılıb.

Daha sonra nümayəndə heyəti Ağdam Dram Teatrının binasının qalıqları önündə rayonun işğaldan əvvəlki görüntüləri və tarixi abidələrinin fotoları olan stendlərə baxıb.

İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosato jurnalistlərə müsahibəsində burada müharibənin acınacaqlı nəticələrini, dəhşətli üzünü, dağıntıları gördüklərini bildirib. O, qeyd edib ki, bundan təsirli görüntüləri görmək mümkün deyil. Burada bütün evlər, infrastruktur dağıdılıb. Azərbaycan dövlətinin və xalqının səyləri nəticəsində bundan sonra bu torpaqlara həyat qayıdacaq. Dağıdılmış evlər yenidən bərpa olunacaq, buralar iqtisadi cəhətdən yenidən inkişaf edəcək. İnanırıq ki, beş ildən sonra buraya gələndə tamamilə başqa mənzərə ilə qarşılaşacağıq.

İtaliya Senatının üzvü Adolfo Urso bildirib ki, İtaliyanın müxtəlif partiyalarını təmsil edən deputatlardan ibarət nümayəndə heyətinin buraya səfər etməkdə məqsədi müharibəni yenidən alovlandıran səbəblər, müharibənin nəticələri, gələcəkdə Azərbaycan və erməni xalqlarının birgəyaşayışı üçün hansı şərtlərin mövcud olması barədə fikir formalaşdırmaqdır. İnsani, dini dəyərlərə hörmət əlaməti olaraq, ilk növbədə, həqiqətin nədən ibarət olduğunu araşdırmaq önəmlidir. Gördüyümüz həqiqət ondan ibarətdir ki, burada cinayət törədilib. Yüz minlərlə günahsız insan öz yaşadıqları ərazilərdən qovulub. Azərbaycan öz torpaqlarını geri qaytarıb. Beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan qətnamələr də bir daha sübut edir ki, bu ərazilər Azərbaycan torpaqlarıdır. Bu torpaqları işğaldan azad etmək Azərbaycanın haqqıdır.

# İtaliya parlamentinin nümayəndələri Gəncəyə və Ağdama səfərləri barədə təəssüratlarını bölüşüblər

Gəncədə erməni terroru nəticəsində böyük dağıntıların yarandığı əraziyə və Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər edən İtaliya parlamentinin nümayəndə heyətinin üzvləri öz təəssüratlarını sosial şəbəkələrdəki hesablarında paylaşıblar.









AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin rəhbəri, Deputatlar Palatasının sədr müavini Ettore Rosato Azərbaycanın ikinci böyük şəhəri Gəncədə mülki əhalinin bombalanmasının dəhşətli nəticələri ilə tanış olduqlarını və bu dramatik mənzərəni heç zaman unutmayacağını yazıb. Qarabağda şəhər və kəndlərin talan olunduğunu və tamamilə yerləyeksan edildiyini bildirən E.Rosato Ağdam məscidinin minarəsindən videogörüntülər də paylaşıb. Qarabağa səfər edən ilk Avropa parlament nümayəndə heyətinin rəhbəri videoda Ağdam şəhərindəki dağıntıları nümayiş etdirib və tezliklə burada həyatın bərpa olunacağına ümid ifadə edib.

İtaliya Senatının Xarici əlaqələr daimi komissiyasının üzvü, hakim "5 Ulduz Hərəkatı" partiyasından olan senator Canluka Ferrara "Qafqazın Xirosiması" adlanan Ağdama gedən yolun minalanmış ərazilərdən keçdiyini yazıb. 1993-cü ildə erməni qoşunları tərəfindən işğal edilən və dağıdılaraq "ruhlar şəhərinə" çevrilən Ağdamda yeganə salamat binanın şəhər məscidi olduğunu qeyd edən C.Ferrara işğal illərində bu dini məbədin donuz tövləsi kimi istifadə edildiyini diqqətə çatdırıb. Bu dəhşəti, misli görünməmiş vəhşiliyi yaxından görə bilən ilk beynəlxalq missiyanın üzvü kimi o, səhraya dönmüş bu ərazilərə insanların tezliklə geri qayıdacaqlarına inam ifadə edib.

İtaliya parlamentində "İtaliya qardaşları" partiyasından olan senator, Senatın xarici əlaqələr daimi komissiyasının üzvü Adolfo Urso öz qeydlərində Gəncədə onlarca qadın, uşaq və qocanın ölümünə səbəb olan raket hücumundan bəhs edib. O, məhv olan ailələr, qətlə yetirilmiş uşaqların oyuncaqları, evlərin dağıdılmış divarlarını sağalması çətin olan yaranın təzahürləri kimi təqdim edib. Həmin dramatik hadisələrin bir daha təkrarlanmaması üçün bu yaraların və acıların sağaldılmalı olduğu qeyd edilib.

A.Urso Ağdamda məscidin donuz tövləsi kimi istifadəsini isə təhqir nümunəsi kimi dəyərləndirib və bu gördüklərinin təəssüf ki, ağrılı həqiqət olduğunu yazıb.

İtalyan parlamentari Alessandro Alfieri Gəncə və Ağdamda gördüyü vəziyyəti ətraflı təsvir edib. Bir zamanlar Azərbaycanın çiçəklənən şəhərlərindən biri olan Ağdama gedən yolda bütün üzüm bağlarının məhv edildiyi, əkin sahələrinin səhraya çevrildiyi, ətraf ərazilərin minalandığı və yalnız xüsusi hərbi hissələrin həmin ərazidə təmizləmə işləri apardığı bildirilir. Qeyd edilir ki, müharibə başa çatsa da, mülki əhali bu ərazilərə geri dönə bilmək üçün səbir etməlidir. O, yaxın günlərdə qohumlarının məzarlarını ziyarət etmək istəyərkən minaya düşən bir ailənin faciəsini də diqqətə çatdırır.

Parlamentari Ağdam haqqında təəssüratlarını müsbət notlarla bitirir. O, qeyd edir ki, dəfələrlə Azərbaycan çempionu olmuş və Çempionlar Liqasında mübarizə aparmış Ağdamın "Qarabağ" futbol klubu bir neçə gün öncə öz ev stadionuna baş çəkdi və həmin mənzərə insanlarda təsirli hisslər doğurdu. Bu, bir daha göstərdi ki, dağıdılmış şəhər yenidən həyata geri dönə bilər.

Parlamentarilərin "Facebook", "Twitter" və "Instagram" sosial şəbəkələrində birbaşa hadisə yerlərindən paylaşdıqları foto və videolar Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün ağır nəticələri barədə dolğun təsəvvürlər yaradıb.

# Milli Məclisin Əmək və sosial siyasət komitəsinin onlayn iclası keçirilib

Dekabrın 7-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin onlayn formatda iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclasda əvvəlcə "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi müzakirə edilib.

Komitə sədri Musa Quliyev bildirib ki, Əmək Məcəlləsinə təklif olunan dəyişikliklər dövlət başçısının 2 dekabr 2020-ci il tarixli "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" və 3 dekabr 2020-ci il tarixli "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" sərəncamlarından irəli gəlib. Layihəyə əsasən, Əmək Məcəlləsinin 105-ci maddəsində nəzərdə tutulan bayram günlərinin siyahısına 8 noyabr - Zəfər Günü də əlavə edilir və qeyri-iş günü olan bayram günlərinə aid edilir. Digər bir dəyişiklik isə məcəlləyə yeni - 106.1-ci maddənin əlavə edilməsi ilə bağlıdır: "Hər il sentyabrın 27-si Azərbaycan Respublikasının işğal altındakı torpaqlarının azad edilməsi uğrunda həlak olan şəhidlərin xatirəsini yad etmə günü - "Azərbaycan Respublikasında Anım Günü"dür. Həmin gün iş günü hesab edilir.

Qanun layihəsi yekdilliklə Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə edilib.

Onlayn iclasda gündəmin aktual məsələlərindən olan "Koronavirus pandemiyası dövründə sosial müdafiə tədbirləri" ilə bağlı komitədaxili dinləmə keçirilib.

Komitənin üzvü Soltan Məmmədov mövzu ilə bağlı məlumatları diqqətə çatdırıb.

Deputat onlayn iclas iştirakçılarının nəzərinə çatdırıb ki, ilin əvvəlində koronavirus testlərinin aparılması üzrə ölkədə cəmi 6 laboratoriya fəaliyyət göstərirdisə, artıq belə laboratoriyaların sayı 40-ı keçib. İstifadə edilən reaktivlər ən yüksək standartlara cavab verir. Soltan Məmmədov virusla mübarizədə Azərbaycan səhiyyə sisteminin rolu, stasionar tibbi personalın hazırlıq səviyyəsi ilə bağlı ətraflı danışıb.

Sonra komitədə "Müharibə veteranlarının, qazilərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial psixoloji adaptasiyasına dair" komitədaxili dinləmə keçirilib.

Məsələ ilə bağlı məlumat verən komitə üzvü Vüqar Bayramov deyib ki, Azərbaycan Prezidenti İlham Əliyev şəhid ailələri və müharibə əlillərinin sosial təminatının gücləndirilməsini dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. Onlara dövlət qayğısının artırılması daim diqqət mərkəzindədir. Hazırda Azərbaycanda şəhid ailələrinin üzvləri üçün 20 birbaşa və təşviqedici dəstək mexanizmi icra olunur. Belə ki, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanuna uyğun olaraq, hər şəhid ailəsinə 11000 manat məbləğində sığorta ödənişi həyata keçirilir. Hər şəhid ailəsinə 300 manat Prezident təqaüdü verilir. Şəhidlərin ailə üzvlərinin əmək pensiyasının sığorta hissəsinə 93,5 manat məbləğində əlavə hesablanır.

Komitə üzvləri Rauf Əliyev, Ziyad Səmədzadə, Səttar Mehbalıyev, Əziz Ələkbərli, Jalə Əliyeva, Məlahət İbrahimqızı, Arzu Nağıyev, İlham Məmmədov, Aqil Məmmədov müzakirə edilən məsələlərlə bağlı fikirlərini bildiriblər.

İclasın sonunda hər iki dinləmənin pandemiya bitdikdən sonra geniş auditoriyada, aidiyyəti icra hakimiyyəti orqanlarının, mütəxəssislərin və QHT nümayəndələrinin iştirakı ilə keçirilməsi qərara alınıb.

# İlham Əliyevin dəmir yumruğu tarixi ədaləti bərpa etdi

## Siyasi nüfuzunu itirən Fransa Senatının qondarma qətnaməsi isə adi bir kağız parçasıdır



"İndi həqiqət anıdır. Sən kimin tərəfindəsən? Haqqın, yoxsa şərin? Dostun, yoxsa düşmənin? Həqiqət anıdır - mənim üçün, xalqımız üçün, hamımız üçün. Əlbəttə ki, bu günlərdə bizə dəstək olan ölkələri, təşkilatları, insanları heç vaxt unutmayacağıq" - Möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin bu müdrik kəlamı son dərəcə düşündürücü olmaqla əcdadımızın əsrlərboyu qazandığı zəngin dövlətçilik təcrübəsinin dəqiq ifadəsidir.

Azərbaycan xalqının 30 ilə yaxın müddətdə həsrətində olduğu doğma Qarabağ və Qarabağ ətrafı 7 rayonumuzun işğaldan azad olunması ilə nəticələnən şanlı Vətən müharibəsi nəinki Cənubi Qafqazda, ümumilikdə, yaxın və uzaq coğrafiyada tamamilə yeni geosiyasi reallıqlar, güc nisbətləri, ikitərəfli və çoxtərəfli siyasi və iqtisadi münasibətlər sistemi formalaşdırdı. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan xalqı bu taleyüklü məqamlarda dostunu da, düşməninə havadarlıq edənləri də bir daha gördü və tanıdı. Bu müharibə həm də Azərbaycan xalqının birliyini, yenilməzliyini, əyilməz qürurunu, ruhunu, müzəffər ordumuzun döyüş qabiliyyətini, əsgər və zabitlərimizin igidliyini, cəsarətini və qəhrəmanlığını bütün dünyaya nümayiş etdirdi.

İkinci Qarabağ müharibəsi Azərbaycanın parlaq hərbi və diplomatik qələbəsi ilə başa çatdı və Ermənistan-Azərbaycan münaqişəsi artıq tarixə qovuşdu. Dekabrın 1-də Laçının işğaldan azad olunması ilə Azərbaycan ərazi bütövlüyünü, suverenliyini, dövlət sərhədlərini tam bərpa etdi və bununla da Qarabağın Azərbaycana məxsus olması haqqında tarixi, hüquqi, siyasi həqiqət de-fakto və de-yure təsdiqini tapdı. Azərbaycan əzəli düşmənini həm döyüş meydanında, həm siyasi-diplomatik arenada, həm də informasiya müharibəsində diz çökdürərək möhtəşəm tarixi və şanlı Zəfərə imza atdı.

Xüsusi qeyd olunmalıdır ki, münaqişə dövrü ərzində ən yüksək beynəlxalq səviyyələrdə - BMT-nin Təhlükəsizlik Şurası, ATƏT, Avropa İttifaqı, Avropa Parlamenti, İslam Əməkdaşıq Təşkilatı, Qoşulmama Hərəkatına üzv ölkələr, eləcə də dünyanın əksər dövlətləri və müxtəlif beynəlxalq təşkilatlar tərəfindən Ermənistan-Azərbaycan münaqişəsində Azərbaycanın beynəlxalq hüquqa və tarixi, siyasi faktlara əsaslanan haqlı mövqeyi birmənalı olaraq dəstəklənmiş, erməni qoşunlarının qeyd-şərtsiz və dərhal işğal edilmiş ərazilərdən çıxarılması haqda qətnamələr və digər rəsmi sənədlər qəbul edilməsinə baxmayaraq, Ermənistan bu sənədlərə məhəl qoymadı və beynəlxalq hüququ ayaq altına atdı. Paşinyanın ikiillik üzdəniraq hakimiyyəti dövründə isə ermənilər daha da azğınlaşaraq danışıqlar prosesini pozdular, həyasızcasına utanmadan "Qarabağ Ermənistandır" - dedilər, Azərbaycanın döyünən ürəyi, mədəni paytaxtı olan qədim Şuşanı "paytaxt" elan etdilər, "yeni müharibə və yeni torpaqlar" iddiası ilə həm bizə, həm də beynəlxalq hüquqa meydan oxudular. Nəticəsi nə oldu? İşğalçı Ermənistan tam məğlubiyyətə uğradı, "məğlubedilməz ordusu" darmadağın edildi, ermənilər yalnız döyüş meydanında deyil, bütün dünya qarşısında özlərini rüsvay etdilər və çıxışı olmayan dalana düşdülər.

Dövlətimizə edilən bütün siyasi təzyiqlərə baxmayaraq, Xalq-İqtidar-Ordu birliyinin təcəssüm etdirdiyi müzəffər Ali Baş Komandanımızın "dəmir yumruğu" və Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə və bununla bağlı qəbul olunmuş bütün beynəlxalq qətnamələri icra etməyə müvəffəq oldu. Daha dəqiq desək, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə bağlı qəbul etdiyi və ATƏT-in Minsk qrupunun yerinə yetirə bilmədiyi 4 qətnaməni Azərbaycan özü təkbaşına icra etdi və Ermənistanı kapitulyasiya sənədini imzalamağa məcbur etdi. Başqa sözlə, 10 noyabr tarixində üçtərəfli Bəyanatın qəbul edilməsi ilə Ermənistan-Azərbaycan münaqişəsinə son nöqtə qoyuldu.

Cari ilin sentyabrın 27-də başlayan Vətən müharibəsi dövründə ən çox müzakirə olunan mövzulardan biri məhz münaqişənin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin ötən dövr ərzindəki fəaliyyəti, daha doğrusu, fəaliyyətsizliyi olmuşdur. Hamı tərəfindən görünən və qəbul edilən həqiqət odur ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkələri 28 illik fəaliyyətləri dövründə sanki danışıqlar xatirinə danışıqlar aparmış, hər vəchlə status-kvonun saxlanılmasına cəhd göstərmiş, Ermənistanın işğalçı, aqressiv siyasətinə göz yummuş və dünya ictimaiyyətini münaqişənin hərb yolu ilə həllinin mümkünsüzlüyünə inandırmağa çalışmışlar. Ötən illərdə Azərbaycan Prezidenti cənab İlham Əliyev ən ali beynəlxalq tribunalarda, platformalarda bu məsələlərə dəfələrlə diqqət çəkmiş, Azərbaycanın münaqişədəki haqlı, ədalətli və prinsipial mövqeyini dünya ictimaiyyətinə lazımi səviyyədə çatdırmışdır.

Xüsusilə Ermənistan silahlı qüvvələrinin növbəti təxribatına qarşı əks-hücum əməliyyatlarının başlandığı ilk gündən etibarən Ali Baş Komandanımız dünyanın aparıcı telekanallarına verdiyi 30-a yaxın müsahibələrində işğalçı Ermənistanın, erməni diasporunun və onun havadarlarının Dağlıq Qarabağla bağlı yalançı, uydurma təbliğat və dezinformasiyalarını bütün mənalarda ifşa etməklə yanaşı, döyüş meydanında baş verənlər və ölkəmiz haqqında, Qarabağın tarixi və gələcəyi ilə bağlı dəqiq, düzgün məlumatları real faktlara və tarixi mənbələrə əsaslanmaqla sistemli şəkildə bütün dünya ictimaiyyətinə və daxili auditoriyaya çatdırmaqla, bir daha bəyan etdi ki, Azərbaycan öz torpağında və öz torpaqları uğrunda haqlı mübarizə aparır, bizim işimiz beynəlxaq hüquqa uyğun haqq işidir, döyüş meydanında Azərbaycan Ordusu, onun əsgər və zabitləri düşmənin yalnız canlı qüvvəsini, hərbi obyektlərini və texnikasını hədəfə alır. Döyüşdə yalnız Azərbaycan vətəndaşları iştirak edir, biz böyük, cəsur və qəhrəman xalqıq, Azərbaycan dövləti güclü və qüdrətli dövlətdir, Azərbaycanda sarsılmaz Xalq-İqtidar-Ordu birliyi mövcuddur, biz milli maraqlarımıza uyğun müstəqil siyasət aparırıq və bizi bu yoldan heç bir qüvvə döndərə bilməz.

Beləliklə, əminliklə deyə bilərik ki, çox qısa müddətdə, cəmi 44 gün ərzində Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyev həm döyüş meydanında, həm də informasiya məkanında mənfur işğalçının və onun havadarlarının illərlə hazırladıqları və həyata keçirməyə çalışdıqları xain planlarını boşa çıxartdı, böyük səbir, təmkin və qətiyyətlə döyüş meydanında misilsiz hərbi zəfər qazandı, erməni ordusunu darmadağın etdi və xalqımızın əzəli düşməninin, sözün əsl mənasında, belini qırdı. İllərlə formalaşdırılan erməni miflərini, yalanlarını bütün dünya ictimaiyyəti qarşısında ifşa etdi və işğalçıya layiq olduğu yerini göstərdi. Azərbaycan bu möhtəşəm qələbəsi ilə işğalçını elə bir vəziyyətə saldı ki, ermənilər nəinki uzun müddət özlərinə gələ bilməyəcəklər, hətta Azərbaycan torpaqlarına tərəf baxmağa belə cəsarət etməyəcəklər.

10 noyabr tarixli Bəyanatdan sonra Azərbaycan və dost-qardaş ölkələr, bütün sülhsevər ictimaiyyət xalqımızın, dövlətimizin bu tarixi nailiyyətini və şanlı qələbəsini sevinclə qeyd edərkən təəssüf ki, işğalçı Ermənistanın havadarları yenə də özlərinə xas olan tərzdə xain, heç bir məntiqə, haqqa, ədalətə sığışmayan yanlış əməllərini davam etdirirlər. Bu kimi fəaliyyətlərin ən utancverici və rüsvayedici nümunəsi isə bir neçə gün öncə, noyabrın 25-də Fransa Senatı tərəfindən qondarma "Dağlıq Qarabağ respublikası" haqqında qərəzli qətnamənin qəbulu və dekabrın 3-də Senatdan sonra Fransa Parlamentinin digər palatası olan Milli Assambleyada qondarma "Dağlıq Qarabağ"ın müstəqilliyinin təcili tanınması zərurəti ilə bağlı qərar qəbul etməsi oldu.

Bu addımlar və qərarlardan öncə də Azərbaycanın hərb meydanında təkbaşına mübarizə apardığı 44 günlük şanlı zəfəri dövründə Minsk qrupunun həmsədr ölkələrindən Rusiya Federasiyasının və ABŞ-ın nisbi neytrallığı, balanslı yanaşması və münaqişənin diplomatik həlli üçün səyləri fonunda Fransa dövlətinin qərəzli mövqeyi, məsələyə açıq-aşkar ermənipərəst yanaşması və münaqişənin həllindən daha çox tərəflər arasında ciddi mübahisə və münaqişə mövzularının alovlandırılmasına səbəb olan təxribatçı bəyanatları Azərbaycan cəmiyyətində haqlı narazılığa səbəb olmuşdur. Münaqişənin həllində iştirak edən həmsədr ölkə kimi Fransa bitərəf, ədalətli mövqe tutmaq əvəzinə, işğalçı Ermənistanı dəstəkləyən və anti-Türk, anti-Azərbaycan mövqe nümayiş etdirirdi. Noyabrın 25-də Fransa Senatı tərəfindən sözdə "Dağlıq Qarabağ"dakı qondarma, separatçı xunta rejiminin tanınmasına çağırış edən, heç bir sağlam məntiqə sığmayan absurd qətnamənin qəbulu isə bu ölkənin ermənipərəst mövqeyinin əsl simasını açıb göstərdi.

Etiraf edək ki, sadəcə kağız parçası olan və heç bir əhəmiyyət kəsb etməyən bu qərəzli qətnamənin qəbulu bizim üçün sürpriz olmadı. Çünki Fransa hökumətinin, xüsusilə Makron hakimiyyəti dövründəki ermənipərəst mövqeyi beynəlxalq diplomatiyaya, xalqların birgəyaşayış, birlik, həmrəylik, multikulturalizm, dini dözümlülük, mədəniyyətlər və dinlərarası dialoq, qarşılıqlı əməkdaşlıq və birgə inkişaf dəyərlərinə qətiyyən uyğun olmayan nümayişkarane "hücum" cəhdləri hər kəs tərəfindən görünən, bilinən həqiqətdir. Şübhəsiz ki, bu "faşist" ritorikasını dövlət siyasətinə çevirən hökuməti təmsil edən Makron-Senat tandeminin uğursuz fəaliyyəti, Senatın və Fransa Milli Assambleyasının qondarma qətnaməni dəstəkləməklə nümayiş etdirdiyi siyasi, tarixi, hüquqi savadsızlığı, beynəlxalq hüququ növbəti dəfə gözardı etməsi və erməni lobbisinin əlində oyuncağa çevrilməsi Avropada söz sahibi olan dövlətlərdən biri kimi Fransa üçün növbəti utanc nümunəsi yaradaraq dövlətin nüfuzuna, beynəlxalq imicinə ciddi zərbələr vurur.

Bu məqamda bir çox suallar yaranır. Görəsən, Fransa dövlətinin bu məsələdə rəsmi mövqeyi necə olacaq? Niyə Avropanın güc mərkəzlərindən biri olan Fransa işğalçı və aqressiv siyasət yürüdən, regionda sülhə, təhlükəsizliyə, inkişafa təhdid olan Ermənistana havadarlıq edir? Dünya birliyi, o cümlədən Fransa hökuməti tərəfindən tanınan və beynəlxalq hüquq çərçivəsində təsdiqlənən Azərbaycanın tarixi, əzəli ərazisi olan Dağlıq Qarabağda separatçı, kriminal, xunta rejimini dəstəkləməklə Fransa regionda nə kimi məqsədlər güdür? Səbəb nədir ki, Fransa iqtisadi, hərbi gücü, siyasi nüfuzu, müsbət beynəlxalq imici ildən-ilə yüksələn, regionun ciddi siyasi-iqtisadi aktoru olan və dünyada özünü etibarlı tərəfdaş kimi təsdiqləyən, xalqlar, dövlətlər, dinlər, müxtəlif konfessiyalar arasında konstruktiv, tolerant, multikultural və mədəniyyətlərarası dialoqu dəstəkləyən, bu münasibətlərə hörmətlə yanaşan müstəqil, demokratik Azərbaycanı deyil, rəzalət içində olan və illərdir ki, dövlət siyasətini yalanlar, tarixi faktların saxtalaşdırılması, faşizm ideologiyası və terrorizm üzərində quran işğalçı Ermənistanı dəstəkləyir? Aşkar ermənipərəst mövqe nümayiş etdirən Fransa, görəsən, regionda Azərbaycan kimi tərəfdaşı itirmək və bu qərəzli münasibət qarşılığında Azərbaycandan gözlənilən adekvat, kəskin reaksiya riskini nəzərə alırmı?

Suallar çoxdur, təhlil olunacaq məqamlar da çoxdur. Məlum olan budur ki, 10 noyabr 2020-ci il tarixində imzalanan üçtərəfli Bəyanatla münaqişə tərəfləri arasında birmənalı sülh əldə olundu. Bu sülh, ilk növbədə, münaqişə tərəflərini qane edir. Lakin nə qədər təəccüblü görünsə də, tədricən aydın olur ki, regionumuzda əldə olunan sülhdən narazı qalan dördüncü tərəflər meydana çıxır. Bu tərəflərdən biri də xüsusilə Makron hakimiyyəti dövründə türk-müsəlman dünyasına aşkar qərəzli münasibət nümayiş etdirən Fransadır. Bəzi məqamların aydınlaşması üçün Fransanın ənənəvi olaraq ermənipərəst mövqe nümayiş etdirməsinin fərqli aspektlərini bir daha nəzərdən keçirməkdə fayda vardır.

İlk növbədə, qeyd olunmalıdır ki, hazırda son məlumatlara əsasən, Fransada 600 minə yaxın erməni əsilli Fransa vətəndaşı yaşayır və Fransa hökumətinin, Senatının qərəzli mövqeyi əsasən daxili auditoriyaya hesablanmış addım olmaqla böyük bir ehtimalla bu kütlənin dəstəyinə güvənmək, seçkilərdə erməni lobbisinin səsini qazanmaq düşüncəsinin nəticəsidir.

Lakin unutmaq olmaz ki, bəzən həddən artıq siyasi emosionallıq müasir XXI əsr diplomatiyası ilə heç cür uzlaşmayaraq, ölkələrarası qarşılıqlı siyasi, iqtisadi, mədəni və s. münasibətlərə və əməkdaşlığa gərəksiz, ciddi zərbələr vura bilir. Qeyd olunmalıdır ki, Azərbaycan ilə Fransa arasında illərlə möhkəmlənmiş iqtisadi əlaqələr mövcuddur. Son statistik məlumatlara əsasən, Fransanın 59 şirkəti Azərbaycanda fəaliyyət göstərir. Fransa şirkətləri enerji (Total), nəqliyyat (Alstom, Thales, İveco, Systra), ətraf mühit (Suez CNİM), kənd təsərrüfatı və qida (Lactalis, Danone), mehmanxana işi (ACCOR), bank biznesi (Societe Generale), aviasiya və kosmik (Airbus, Thales) kimi əsas sahələrdə fəaliyyət göstərərək əhəmiyyətli dərəcədə mənfəət əldə edirlər və Azərbaycan iqtisadiyyatının diversifikasiyasına da müəyyən töhfə verirlər.

1995-2017-ci illər ərzində fransız şirkətləri tərəfindən ölkəmizə yatırılan sərmayələrin həcmi 2,2 milyard ABŞ dolları təşkil etmişdir. Bu dövrdə Azərbaycanın Fransaya yatırdığı investisiyaların həcmi 224,7 milyon ABŞ dolları məbləğində olmuşdur. 2019-cu ildə iki ölkə arasında ticarət dövriyyəsi 787,4 milyon dollar təşkil etmişdir ki, bunun da 250,7 milyon dolları idxalın, 536,6 milyon dolları ixracın payına düşmüşdür. Fransanın tanınmış "Total" şirkəti 1996-cı ildən Azərbaycanda neft kəşfiyyatı layihələrində iştirak etməyə başlamışdır. Şirkət nəhəng transmilli enerji layihəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin 11 səhmdarından biridir və burada 5%-lik paya malikdir. İlk qaz hasilatının 2021-ci ildə əldə edilməsi nəzərdə tutulan "Abşeron" yatağının işə başlaması "Total"ın Azərbaycandakı fəaliyyətini daha da genişləndirəcək. Hazırda layihənin iştirakçıları SOCAR (50%) və "Total" (50% - operator) şirkətləridir. Müqavilə 2016-cı ildə 30 il müddətinə imzalanıb və s.

İki ölkə arasında bir çox sahələrdə, eləcə də sosial, humanitar, mədəniyyət, təhsil, elm və texnologiya, digər istiqamətlərdə geniş spektrli əməkdaşlıq mövcuddur. Azərbaycan-Fransa arasında xüsusilə də mədəniyyət və təhsil sahəsində bugünədək mühüm birgə layihələr həyata keçirilmişdir. Azərbaycanda 2014-cü ildən Fransa Təhsil Nazirliyinin proqramı əsasında yüzdən çox şagirdə bağçadan bakalavr pilləsinədək təhsil almaq imkanı verən Bakı Fransız Liseyi və 2016-cı ildən Fransa-Azərbaycan Universiteti (UFAZ) fəaliyyət göstərir. Fransız dilinin tədrisi Azərbaycanda ingilis və rus dillərindən sonra üçüncü sırada yer alır. Ümumilikdə, 50 minə yaxın şagird və tələbə xarici dil olaraq fransız dilini öyrənir. Fransanın Azərbaycandakı səfirliyinin dəstəyi ilə Bakı Slavyan Universitetində Viktor Hüqo adına Fransız Dili və Ədəbiyyatı Mərkəzi və Azərbaycan Dillər Universitetində "Fransa Mərkəzi" yaradılmışdır. Təhsil Nazirliyinin "SABAH" layihəsi çərçivəsində Fransa səfirliyinin dəstəyi ilə 2015-ci ildən etibarən fransalı müəllimlər tərəfindən Azərbaycanın 4 ali məktəbində (Azərbaycan Dillər Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Texniki Universiteti) fransız dili ikinci xarici dil kimi "SABAH" qruplarında tədris edilir. Bundan əlavə, hər il çoxsaylı azərbaycanlı gənclər təhsillərini davam etdirmək üçün Fransanın ali məktəblərinə yollanır. Artıq uzun illərdir ki, Parisin Şərq Dilləri və Sivilizasiyaları İnstitutunda (INALCO) Azərbaycan dilinin tədrisi həyata keçirilir. Bu tədris proqramında Fransa, eləcə də digər ölkələrdən olan 120 tələbə Azərbaycan dilini öyrənir. Həmçinin Parisdə Azərbaycan Mədəniyyət Mərkəzində ölkəmizi, habelə onun tarixi və mədəni irsini fransız ictimaiyyətinə təqdim edən çoxsaylı tədbirlər həyata keçirilir və s.

Azərbaycan-Fransa arasında humanitar, mədəniyyət sahəsində qarşılıqlı əməkdaşlığın inkişafında ölkəmizin Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi vurğulanmalıdır. Heydər Əliyev Fondunun dünya mədəniyyətinin inciləri hesab olunan tarixi, dini abidələrin qorunması, bərpa olunması və təmiri istiqamətində icra etdiyi nəhəng layihələrdə Fransanın payı olduqca yüksəkdir. Heydər Əliyev Fondu Parisin Luvr muzeyində İslam incəsənətinə həsr olunmuş yeni zalların yaradılmasında iştirak etmiş, məşhur Notr-Dam kilsəsinin təmiri üçün maliyyə yardımı göstərmiş, Strasburq Kafedral kilsəsinin XIV əsrə aid olan beş pəncərəsinin, Versal Sarayının parkındakı "Amazonka"nın və "Qulpları favn başları ilə bəzədilmiş vaza"nın, Fransada X-XII əsrlərə aid 7 kilsənin təmirini həyata keçirmişdir.

Azərbaycan regionda artıq özünü təsdiqləmiş etibarlı beynəlxalq iqtisadi tərəfdaşdır, bir çox transkontinental iqtisadi layihələrin təşəbbüsçüsü və fəal iştirakçı aktorudur. Azərbaycanla bu dərəcədə inkişaf etmiş iqtisadi, mədəni, siyasi əlaqələri olan Fransa hökuməti yuxarıda qeyd olunan şübhəli siyasi qərarları ilə nəinki Azərbaycan və ya Türkiyə ilə diplomatik və digər çoxşaxəli əlaqələrinə zərər vurur, eyni zamanda beynəlxalq etibarlılığına da ciddi xələl gətirir.

İkincisi, bu qərəzli "qətnamə"nin qəbulu zamanı Fransa Senatındakı vəziyyətə baxaq. Qətnaməyə səs verən 336 senatordan 30 nəfər bitərəf qalıb, 305 nəfər "qətnamə"nin leyhinə səs verib və sonradan Makronun partiyasını təmsil edən 7 nəfər səsini geri götürüb. Qeyd edək ki, hakimiyyət senatda cəmi 23 nəfərlə təmsil olunur. Müxalifətin təşəbbüsü ilə səsverməyə çıxarılan və əsasən erməni əsilli vətəndaşların yaşadığı regionları təmsil edən senatorların dəstəklədiyi qətnamə Fransanın erməni lobbisinin əlində oyuncağa çevrilməsinə dəlalət etmirmi?

Üçüncüsü, siyasi tarixin və beynəlxalq hüququn saxtalaşdırılmasına xidmət edən, yalnız erməni diasporunun maraqlarına cavab verən və Fransanın siyasi imicinə, beynəlxalq etibarlılığına xələl yetirən bu qərəzli qətnaməyə səs verən senatorlara sual verən oldumu ki, siz hansı "respublikanı" tanımağı tövsiyə edirsiniz? İşğalçı Ermənistanın özünün tanımağa cürət etmədiyi, münaqişə haqqında Rusiya prezidenti Putinin və Makronun özünün "Dağlıq Qarabağ və ətrafındakı 7 rayon beynəlxalq hüquqa əsasən, suveren Azərbaycan Respublikasının ərazisidir" dediyi ərazilərdə separatçıların və terrorçu, kriminal, xunta rejiminin yaratdığı oyuncaq "respublika"nımı tanıyırsınız? Haradadır o qondarma qurum?

Ali Baş Komandan İlham Əliyev bu qondarma xunta rejimini də, Azərbaycana sırınan status-kvonu da tarix səhnəsindən əbədi olaraq silib atdı. Artıq ərazi bütövlüyü, dövlət sərhədləri tam bərpa olunmuş suveren Azərbaycan Dövləti var!

Müstəqil, güclü Azərbaycanın yenilməz xalqı, məğlubedilməz ordusu və müzəffər Sərkərdəsi, Lideri, əbədi Prezidenti var!

Bu siyasi, hüquqi savadsızlığı necə əsaslandırmaq olar ki, qətnamədə "Azərbaycan Silahlı Qüvvələrinin və "onların dəstəkçilərinin" 27 sentyabr tarixindən etibarən işğaldan azad etdiyi torpaqlardan "çıxarılması", "1994-cü ildə müəyyən olunmuş sərhədlərin bərpası" kimi absurd ifadələr səslənir? Bu, hansı məntiqə sığır ki, işğal altında olan Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad olunması haqqında BMT-nin qətnamələrinə imza atan, məhz münaqişənin həlli üçün yaradılan ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Fransanın senat üzvləri bu dərəcədə qərəzli, qızışdırıcı, təxribat mahiyyətli və münaqişə tərəfləri arasında açıq-aşkar ayrı-seçkilik sırf ermənipərəst mövqeyi ilə ən çox özünə zərər vurmuş olacaq.

İstənilən halda işğalçının havadarlarının bu kimi çarəsiz cəhdləri Azərbaycanın İkinci Qarabağ müharibəsindəki əsrlərə bərabər parlaq siyasi və diplomatik qələbəsinin kölgəsində sadəcə toz zərrəciyidir. Azərbaycan döyüş meydanında öz sözünü dedi və 44 gün ərzində bütün dünyaya XXI əsrin yeni müharibə modelini təqdim edərək möhtəşəm qələbələr qazandı. Yalnız beynəlxalq hüquqa əsaslanan Azərbaycanın işğalçı Ermənistanın ardıarası kəsilməyən növbəti təxribatına qarşı 27 sentyabr tarixli əks-hücumu Böyük Vətən müharibəsinə çevrildi.

Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu misilsiz şücaət göstərərək işğal altında olan torpaqlarının xeyli hissəsini - 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəklikləri düşmən tapdağından azad etdi. Dekabrın 1-də ərazi bütövlüyünü tam bərpa edən Azərbaycanın bütün torpaqlarında bu gün şanlı Azərbaycan bayrağı dalğalanır. Fransa senatı bu nəticələri görmürmü ki, 10 noyabr tarixində həll olunan münaqişə haqqında 25 noyabr tarixində uydurma bəyanatlar verir, qondarma qətnamə qəbul edir?

Düşünürəm ki, səbəb aydındır. Son onilliklərdə ilk dəfədir ki, Şərq-müsəlman dünyası Qərb üzərində qalib gəldi. Qarabağ müharibəsi - Azərbaycanın İkinci Qarabağ savaşında qətiyyətli qalibiyyəti regiondakı güclər nisbətini tamamilə dəyişdi, Türkiyə və Azərbaycan artıq ciddi geosiyasi, iqtisadi gücə çevrilib. Fransa münaqişədəki sözsahibi mövqeyini qərəzli yanaşması və qeyri-adekvat fəaliyyəti ilə itirdi və münaqişə, əslində, Bakı-Moskva-Ankara formatında həll olundu. Fransanın bu aşkar passivliyi təbii ki, erməni lobbisini hiddətləndirdi və nəticə göz qabağındadır ki, ermənipərəst senatorlar düşünülməmiş addımları ilə yalnız özlərini və təmsil etdikləri dövləti rüsvay etdilər.

Azərbaycan Prezidenti cənab İlham Əliyev dəfələrlə müxtəlif beynəlxalq platformalarda bütün dünya ictimaiyyətini, beynəlxalq təşkilatları, BMT-ni, ATƏT-i, Minsk qrupunun həmsədr ölkələrini münaqişənin əsl mahiyyəti, Azərbaycanın münaqişənin həlli ilə bağlı prinsipial və konstruktiv mövqeyi haqqında məlumatlandırıb, Ermənistanın işğalçılıq siyasəti, Azərbaycan ərazisində yeni torpaqların işğal olunması, etnik təmizləmə, qırğınlar törətmək kimi faşist ambisiyaları haqqında xəbərdar edib. Ermənistan isə beynəlxalq hüququn tələblərinə məhəl qoymadan işğalçılıq siyasətini davam etdirirdi, münaqişənin hərb yolu ilə həllinin mümkünsüzlüyü haqqında təxribatla məşğul idi. İşğalçı Ermənistanın və onun havadarlarının nəzərə almadığı məqam isə bundan ibarət idi ki, müasir Azərbaycan müstəqil siyasət yürüdən və cəsarətli, müdrik, xalqının mənafelərini hər şeydən üstün tutan iradəli Lideri olan, hərbi, siyasi, iqtisadi qüdrəti ilə seçilən dövlətdir.

Azərbaycan 44 günlük müharibə zamanı bütün erməni miflərini darmadağın etdi, erməni yalanlarını ifşa etdi, işğalçının faşist, qatil, oğru və qəsbkar simasını dünyaya nümayiş etdirdi. İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının milli qürurunu, qələbə əzmini, özünəinamını yüksəltdi və Azərbaycan bir daha qalib dövlət və məğrur xalq kimi özünü təsdiqləməyə nail oldu. Xalqımız Prezident, Ali Baş Komandanımızın ətrafında bir yumruq kimi birləşdi. Ölkəmizdəki Xalq-İqtidar-Ordu birliyi, sözün əsl mənasında, "dəmir yumruğa" çevrildi və işğalçının belini qırdı. İşğaldan azad olunan torpaqlarımızın hər guşəsində üçrəngli Dövlət bayrağımız dalğalanır, müqəddəs Azan oxunur, namazlar qılınır, Himnimiz səslənir. Azərbaycan xalqı müzəffər Prezidentimizin rəhbərliyi ilə mənfur düşməndən təmizlənmiş bütün torpaqlarımızı cənnət məkanına, beynəlxalq turizm mərkəzlərinə çevirəcək, o regionların iqtisadi potensialından maksimum istifadə edəcək və şübhəsiz ki, ərazi bütövlüyü bərpa olunmuş Azərbaycan torpaqlarının iqtisadi potensialı artıq bütün gücü ilə xalqımızın rifahı, yüksəlişi, tərəqqisinə xidmət edəcəkdir.

Əlbəttə ki, Azərbaycana yenə beynəlxalq siyasi təzyiqlər istisna deyildir. Lakin unutmayaq ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin müzəffər Ali Baş Komandanı xalqımızın bəlkə də ən mürəkkəb, taleyüklü 44 günlük Zəfər yürüşü müddətində bütün beynəlxalq təzyiqlərə mətanətlə sinə gərdi, erməni lobbisinin illərlə formalaşdırdığı mifləri, "dəstək güclərini" darmadağın etdi, Azərbaycana hər arenada edilən bütün hücumları qətiyyətlə dəf etdi. Bütün xalqımız əmindir ki, Azərbaycanın müstəqilliyini qoruyan, möhkəmləndirən, əbədi edən müzəffər sərkərdəmiz, Prezidentimiz nəyi, nə zaman və necə edəcəyini gözəl bilir.

Cənab İlham Əliyev Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirən dövlətlərin, hökumət nümayəndələrinin, hətta mətbuat, KİV təmsilçilərinin layiqli cavabını həmişə verib və şübhəsiz ki, Fransa Senatının bu qondarma qətnaməsinin, eləcə də Fransa Milli Assambleyasının düşünülməmiş qərarının bu ölkə üçün ciddi siyasi nəticələri olacaq. Cəmiyyətimizdəki emosional reaksiyalar, Fransaya qarşı siyasi, iqtisadi tədbirlər haqqında bəyanatlar, əslində, başa düşülən olsa da, rasional, təmkinli, səbirli yanaşma bütün situasiyalarda ən düzgün seçimdir. Fransa hökumətinin rəsmiləri Senatın bu qondarma qətnaməsinin hüquqi əhəmiyyəti olmadığını təsdiq edib və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha qeyd edib. Sağlam məntiq deyir ki, Milli Assambleyanın 3 dekabr tarixli qərarının da aqibəti eyni olacaq və bu qərar da öncəkilər kimi sadəcə növbəti bir rüsvayçılıq və tarixi, hüquqi saxtakarlıq nümunəsi kimi kağız üzərində qalacaq.

Azərbaycan Vətən müharibəsində ərazi bütövlüyünü bərpa etdi və indi Azərbaycan üçün tamamilə yeni, möhtəşəm inkişaf dövrü başlayır. Artıq böyük-kiçikliyindən asılı olmayaraq bütün dövlətlər Azərbaycanı iqtisadi, siyasi, hərbi güc kimi tanıyır, qəbul edir. Azərbaycan erməni faşizmi, onların uydurmaları, ölkəmizə qarşı ərazi iddiaları, yalanları üzərində qətiyyətli qələbə qazandı. Azərbaycan xalqı bu möhtəşəm hərbi-diplomatik qələbənin memarı, müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev ətrafında sıx birləşib və ölkəmizdəki Xalq-İqtidar-Ordu birliyi əbədidir, sarsılmazdır. Dünya artıq təkqütblü deyil, ikiqütblü də deyil, çoxqütblüdür və Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, "Dünya 5-dən (ABŞ, Rusiya, İngiltərə, Çin və Fransa - Ş.H) böyükdür".

*XXİ əsr Türk əsridir və Ali Baş Komandan İlham Əliyev Türk millətinin, Azərbaycan xalqının gücünü, milli ruhunu, qələbə əzmini, "dəmir yumruğu"nu bütün dünyaya nümayiş etdirdi. Regionumuzda, bütün coğrafiyamızda, hətta dünyada artıq hər kəs Azərbaycanla münasibətlərində bu "dəmir yumruğ"u nəzərə alacaq. Biz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevlə, rəşadətli Ordumuzla qürur duyuruq.*

***Şəmsəddin HACIYEV,***
***YAP Səbail rayon təşkilatının sədri, iqtisad elmləri doktoru, professor***

# Hər zülmətə çilənən bir nur var

## Taclı virusa qalib gəlmək üçün ehtiyatlı və tədbirli davranın

Koronavirus - taclı virus müdhiş bəla, qorxunc vahimə kimi planeti çənginə alıb. Nə qədər nikbin olmağa çalışsaq da, xəstələrin, ölənlərin sayının hər gün artan statistikası bizə qaranlıq perspektivlərdən xəbər verir, ciddi narahatlıqlar yaradır. Hər birimizin ağlında bir şübhə doğur, hər birimizin ruhuna müəmmalı bir qorxu hakim kəsilir.

Artıq hamımız anlayırıq ki, istəsək də əvvəlki qaydada yaşaya bilməyəcəyik. Eyni zamanda anlamadığımız da var və bu, nə etmək lazım olduğunun, xəstəlikdən yayınmağın, yoluxmamağın incəlikləri barədə heç nə bilməməyimizdir. Ya da biliklərimiz o qədər azdır ki, nikbinlikdən daha çox çaşqınlıq içində üzürük.

Nə etməliyik? Ən vacibi nikbin olmaq, inam və ümidlə yaşamağa davam etməliyik. Biz ən ağır döyüşdə lovğa və azğın düşmənə qalib gələn möhtəşəm bir xalqıq. Tanrı insanı bütün yaratdıqlarından gözəl, mükəmməl yaradıb.

Biz - bütün xalq yumruq kimi birləşdik, sıravi əsgərdən Ali Baş Komandanadək eyni amal, eyni məqsəd uğrunda haqq savaşına atıldı və zəfər çaldı. İndi bizə bu möhtəşəm qələbədən güc almaq, onu bayraq kimi başımızın üstünə qaldırmaq və irəliyə - yeni hədəflərə doğru irəliləmək lazımdır.

Belə əzəmətli qələbəni qazanan xalq üçün taclı virusla mübarizə aparmaqdan, ona qalib gəlməkdən asan nə ola bilər ki? Bunun üçün nəyi bilməliyik? Bu virus həddən ziyadə zəifdir, acizdir və yalnız immun sistemi güclü olmayanlar üçün təhlükəyə çevrilə bilir. Təmizkar və sağlamsansa, taclı virus sənin qarşında acizləşir. Bunun üçün, sadəcə, məsuliyyətli olmağımız yetərlidir. Vətəni, torpaqlarımızı sevdiyimiz kimi, hələ xəstələnməmiş səhhətimiz barədə düşünməli, sağlamlığımızı qorumalıyıq. Bilməliyik ki, ən asanı bu xəstəliyə yoluxmamaqdır. Əgər hamı bunu düşünsə, buna can atsa, iki həftəyə taclı virusla bağlı vahimələr sabun köpüyü kimi partlayıb əriyəcək.

Hər kəs özünü və ailəsini qorumalı, xəstəliyin yayılmasına səbəb olan davranışlara son qoymalıdır. Yenə yumruq kimi birləşməliyik, bilməliyik ki, azad edilən torpaqlar yolumuzu gözləyir. İndi 30 il düşmən tapdağı altında qalan şəhər və kəndlərimizə qayıtmalı, tikib qurmalıyıq. Erməni vandallarının cəhənnəmə döndərdikləri, xaraba qoyduqları o yerləri dirçəltmək, yenidən gülüstana çevirmək üçün hər birimizə sağlam və güclü olmaq lazımdır. Biz düşmənin qarşısında yenilməz olmalı, onun istənilən hiylə və həmləsinə anında cavab verməliyik.

Sadəcə düzgün qidalanın, ən faydalı ərzaqları qəbul edin və gigiyenik qaydalara əməl edin. Ruhunuza nikbinlik aşılayın və xəstəlikdən qorxmayın. Özünüzə qapanmayın, qardaşın, bacının, atanın və ananın yanına gedə bilmirsinizsə, bədbinləşməyin, sosial şəbəkələrlə əlaqə saxlayın, bir-birinizə həyan olun. Siz özünüzü qorusanız, başqaları xəstələnməyəcəkdir. Bu, taclı virusun ən zəif yeridir. Ona imkan verməyin ki, sizi və yaxınlarınızı yatağa salsın. Bilik və təcrübənizə söykənib onu təcrid edin, özünüzdən uzaqlaşdırın və bununla da qalib gəlin.

Son vaxtlar kütləvi şəkildə çox toplaşdıq. Şəhidlərimizi el-oba ilə qarşıladıq, yan-yana sıralanıb bayraqlarla son mənzilə yola saldıq. Savaşdan dönən hər qazini qarşılayan insanların və göyə ucaldılan bayraqların sayı-hesabı yox idi. Hər şəhidi son mənzilə elə yola saldıq ki, sanki öz balamızdır. Hər qazini öz övladımız, gözümüzün nuru bilib qarşısına çıxdıq. 30 il həsrətində olduğumuz möhtəşəm qələbənin sevinci o qədər böyük idi ki, küçələrə çıxmaya, bayraqlara sarılmaya bilməzdik!

Bu müqəddəs savaş bizim təbiətimizi cilaladı, ruhumuza mükəmməllik və ucalıq bəxş etdi. Qarşıda isə bizi yeni sınaqlar, böyük işlər gözləyir. Ona görə də çalışmalıyıq ki, körpələrimiz sağlam böyüsün, gənclərimiz daha güclü və mətin olsunlar. Yaşlı nəslin də sağlamlığı zərurətə çevrilir, çünki onların təcrübəsinə, müdrikliyinə həmişə ehtiyac var.

Beləliklə, taclı virusla mübarizə iki əsas istiqamətdə aparılmalıdır. Birincisi, gigiyenik qaydalara riayət etmək, başqalarını yoluxdurmamaq üçün birbaşa ünsiyyətlərdən qaçmaq lazımdır. Çalışın dükanlara mümkün qədər az gedin, bazarlığınızı birdəfəlik edin. Təmizliyə dəqiqliklə riayət etmək vacibdir. Liftin düyməsini basanda belə barmağınızın ucuna salfet sarıyın, liftdən çıxanda isə onu tullayın. Sizə şəstlə əl uzadanlardan çəkinin. Evə girən kimi əllərinizi tövsiyə olunduğu kimi yuyun. Üst paltarınızı çıxarın, dolabdan asın ki, bir günə üstünüzə bayır-bucaqda düşən virus qırılsın. Pəncələri açın və evdə gündə bir neçə dəfə havanı dəyişin.




İkincisi, bilməlisiniz ki, immun qabiliyyəti güclü olanlar ya bu xəstəliyə yoluxmur, ya da onu asan keçirirlər. Ona görə də ailə sağlamlığı birnömrəli məsələyə çevrilməlidir. Siz nə qədər çox hərəkətdə olsanız, idman etsəniz, bədəniniz bir o qədər güclü olacaq. Ailədə hamı bir- birini həvəsləndirməli, idman etməli, gəzməli, sağlam həyat tərzi keçirməlidir. Təmiz hava insanın ruhuna saflıq və güc gətirir, bədənin bütün üzvlərinin oksigenlə təchizatını gücləndirir. Xüsusən də qış aylarında günəşli günlərin qədrini bilmək və onlardan maksimum faydalanmaq lazımdır. Həyətinizdə, yaxındakı yaşıllıq olan yerlərdə gəzmək faydalıdır. Adətən, yaşlı adamlara, sakit yaşamağa, oturaq həyata vərdişli olanlara idman o qədər də cəlbedici görünmür. Yoluxmamaqda güclü immun sisteminin və sağlam bədənin rolu böyük olduğundan orqanizmin fiziki yüklə təmin edilməsi ciddi məsələdir.

Üçüncüsü, qidanın düzgün seçilməsi vacibdir. Şərq mətbəxinin qaydası ilə süfrəyə düzdüyümüz nemətlərin heç də hamısı sağlamlığımız üçün faydalı deyil. Şirnilərlə, qoğallarla bəzədilən süfrə, həddən artıq qızardılan və qovrulan ərzağın isə faydasından çox ziyanı olur. Ona görə də evdə süfrəyə qoyulan qidaların vitaminlərlə zənginliyinə üstünlük vermək lazımdır. Bazarlıq edərkən çalışın ki, çeşidlər mümkün qədər geniş, meyvə, tərəvəz və quru meyvələrlə zəngin olsun. Əslində, Azərbaycanda yetişən bütün meyvələr müalicəvidir, qiymətləri də o qədər baha deyil. Alma, heyva, nar, feyxoa, narıngi, portağal, qoz, fındıq və digərlərini nəzərdə tuturuq. Cır meşə meyvələri isə, məsələn, çaytikanı, yemişan, zirinc və s. ən bahalı dərmanlardan daha xeyirlidir. Təkcə çaytikanında insan orqanizmi üçün faydalı olan 50-yə yaxın mikroelement var. Qısası, menyu nə qədər faydalı və geniş olsa, ziyanlı qidalardan nə qədər uzaq dursaq, yoluxma ehtimalı da sıfıra enəcək.

Dördüncü və ən vacib amil həyat tərzidir. İstirahət, yuxu qaydasında olmalıdır. Əsəblərinizi mümkün qədər qorumalısınız. Nə qədər sakit və təmkinli olsanız, taclı virus bir o qədər sizdən uzaq dayanacaq. Ona görə də ailədə diqqətli, qayğıkeş və nikbin olmağınız vacibdir. Yəni hər kəs digəri üçün davranış nünunəsi göstərməlidir. Sağlam ailə bütün çətinlikləri asanlıqla dəf edir. Belə ki, bir nəfərin yoluxması bütün ailəni təhlükəyə atır, hamını, hətta qonşuları da səksəkədə saxlayır.

Dövlət taclı virusla mübarizə üçün böyük vəsaitlər xərcləyir. Koronavirusa yoluxanların müalicəsi üçün bütün qüvvələr səfərbər olunub, sürətlə yeni modul tipli xəstəxanalar qurulub. Amma artıq xəstələrin sayı o qədər çoxdur ki, çarpayı azlığı hiss olunur. İndiki qaydada xəstələrin sayı artarsa, vəziyyət kəskin şəkildə ağırlaşa bilər.

Son ayın təcrübəsi göstərdi ki, dövlətin atdığı addımların faydası o zaman yüksək olur ki, hamı karantin qaydalarına əməl edir, özünü və ailəsini qoruyur, xəstəliyin yayılmasına səbəb olan addımlar atmır. Beləliklə, hər bir kəs bu xəstəlikdən qorunmaqla başqalarını yoluxdurmur, ailəsini də, dövlətini də qoruya bilir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# ATƏT-in yeni baş katibi Helqa Şmid oldu

Bu günlərdə alman diplomatı Helqa Şmid Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) yeni baş katibi oldu. Xanım Şmid Avropa diplomatik dairələrində və vətənində nə ilə məşhurdur? Onun tərcümeyi-halından ən vacib faktlar barədə "Alman dalğası" radiostansiyası xəbər verib.



Avropa siyasəti ilə məşğul olanların əhatəsində Helqa Şmid adı çox az tanınır. Baxmayaraq ki, bu gün 60 yaşını qeyd edən almaniyalı diplomat ATƏT-in baş katibi vəzifəsinə təyin olunmazdan əvvəl də Avropa xarici siyasət fəaliyyəti xidmətində mühüm vəzifə tutmuşdur. Bu xidmət Avropa İttifaqının özünəməxsus Xarici İşlər Nazirliyi rolunu oynayır, ona görə də onu həm də Avropa diplomatik xidməti adlandırırlar.

## Diplomat karyerası

Helqa Şmid Münxen Lüdviq-Maksimilian Universitetində və Paris Sorbonunda roman dillərini, tarixi və siyasəti, daha sonra Vyana Diplomatik Akademiyasında beynəlxalq və Avropa hüququnu öyrənmişdir. 1988-ci ildə karyerasına AFR-in Xarici İşlər Nazirliyində diplomat kimi başlayıb. O, Almaniyanın milli-sosialist keçmişini dərk etmək üzrə sistemli işə verdiyi töhfəyə görə o zamankı xarici işlər naziri Yoşka Fişer tərəfindən qiymətləndirilmişdir.

"Rəsmi Berlin Şmidi dəstəkləmək üçün əlindən gələni edəcək", - deyə Almaniyanın xarici işlər naziri Hayko Mas onun təyinatını şərh edərkən bildirib. O, Şmidə olan "böyük etimadı" xüsusi qeyd edərək deyib ki, ATƏT-in baş katibi postuna "bundan yaxşı namizədliyi" təsəvvür edə bilmir.

Avropa diplomatik xidmətində Helqa Şmid 2016-cı ilin sentyabrından Avropa diplomatiyasının baş katibi, ikinci siması olub. Bu postda o, xüsusilə Aİ ilə İran arasında Tehranın nüvə proqramı ilə bağlı danışıqlar, eləcə də Krımın ilhaq edilməsindən və Donbasda münaqişənin başlanmasından sonra Ukrayna - Rusiya münasibətləri ilə məşğul olub.

O zaman Prezident Barak Obamanın olmasına baxmayaraq, hər iki məsələdə ABŞ-ın mövqeyi Avropa diplomatiyası üçün əlavə problemlər yaratmışdı. Vaşinqton israr edirdi ki, İran və Rusiyaya daha çox təzyiq göstərilsin, Aİ isə, əksinə, kompromislərə hazır idi.

Həmin vaxt Helqa Şmid yalnız bir dəfə diqqət mərkəzində oldu. YouTube-da hələ də söhbətin Aİ-nin Ukraynadakı nümayəndəliyinin o zamankı rəhbəri Yan Tombinski ilə Helqa Şmidin telefon danışıqlarının dinlənilməsindən getdiyi videonu tapmaq mümkündür. Diplomatlar söhbət zamanı sanksiyaların tətbiqində israrlı olan və avropalıları yumşaqlıqda ittiham edən amerikalıların mövqeyini tənqid edirlər.

Həmin video internetdə peyda olduqdan sonra ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə o zamankı köməkçisi Viktoriya Nulandın qalmaqallı reaksiyası da məlum oldu. Bilindi ki, Kiyevdəki səfirlə söhbətində o, təhqiramiz ifadələr söyləyib. Bütün bunlar Aİ-ABŞ münasibətlərinə mənfi təsir göstərib. Donald Tramp Prezident olandan sonra isə münasibətlər tamamilə korlandı.

## ATƏT-in baş katibi postunda qarşıda duran vəzifələr

ATƏT-in baş katibi postunda Helqa Şmid bir sıra çətin məsələləri həll etməli olacaq. Bundan başqa, o, Ukraynada münaqişənin həlli və İranla münasibətlər məsələsi ilə yenə də məşğul olmalıdır. Şmid həm də ATƏT-in daxili problemlərini həll etməlidir.

Avropa, Asiya və Şimali Amerikanın 57 dövlətinin üzv olduğu Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı 1975-ci ildə yaradılmışdır. ATƏT-in qərargahı və katibliyi Avstriyanın paytaxtı Vyanada yerləşir. Onun əsas məqsədi, adından da bəlli olduğu kimi, sülhü və qarşılıqlı anlaşmanı təmin etmək və münaqişələrin tənzimlənməsi idi.

O vaxt Avropa parçalanmış, Şərq və Qərb blokları ölkələrinə bölünmüşdü. İndi parçalanma təşkilatın daxilində baş verir. Hazırda ATƏT-ə sədrlik edən Albaniyanın Baş naziri Edi Rama ATƏT-in iştirakçısı olan ölkələrin xarici işlər nazirlərinin illik zirvə görüşünün açılışında bəyan edib ki, təşkilatın üzvləri arasında soyuq müharibəni xatırladan qarşıdurma var. Bununla yanaşı, ATƏT-in beynəlxalq diplomatiyasında çox mühüm rol oynayır.

ATƏT-in üzvü olan ölkələr kimin baş katib vəzifəsini tutması barədə razılığa gələ bilmirdilər. İsveçrəli Tomas Qremingerin mandatının müddətini uzatmaq mümkün olmadı, çünki ona qarşı Rusiya və Mərkəzi Asiya dövlətləri çıxış edirdilər və onlar bu vəzifədə öz regionundan olan namizədi görmək istəyirdilər. Uzun müddət təşkilatda hakimiyyət boşluğu mövcud idi. İndi Helqa Şmid ATƏT daxilində birliyin möhkəmləndirilməsi məsələsi ilə məşğul olmalıdır.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

# *Misirli professor:* "Prezident İlham Əliyev İslam tarixində müzəffər sərkərdə kimi qalacaq"

Azərbaycan Prezidenti İlham Əliyev İslam tarixində müzəffər sərkərdə kimi qalacaq. Mən onu İslam aləminin xilaskarı olmuş Səlahəddin Əyyubi kimi tarixi şəxsiyyətlərlə müqayisə edərdim. Azərbaycan Prezidenti torpaqları işğaldan azad etməklə yanaşı, həm də İslam mədəni irsinin bir hissəsini tamamilə məhv olmaqdan xilas etdi və bütün dünyanın qarşısında onların tezliklə bərpa ediləcəyi bəyanatını səsləndirdi.

Bu fikirləri AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində Misir-Azərbaycan Dostluq Cəmiyyətinin baş katibi, Benha Universitetinin professoru Əbdülrəhman Saad söyləyib. O, əlavə edib: "Mən və Dostluq Cəmiyyətinin digər üzvləri Azərbaycan xalqını və şəxsən Prezident İlham Əliyevi böyük Qələbə münasibətilə təbrik etmişik. Biz 30 ilə yaxın işğal altında qalmış Azərbaycan torpaqlarının azad edilməsinə sevinirik. Azərbaycanın dostu kimi, hər tədbirdə, hər forumda ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqların nəticə verməməsindən narahatlığımızı ifadə edirdik. Bu münaqişənin nizama salınmasına ən böyük maneə BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının dərhal və qeyd-şərtsiz olaraq azad edilməsi haqqında qətnaməsinə məhəl qoymayan Ermənistan rəhbərliyi idi. Lakin son illər hərbi təxribatları daha da artıran, üstəlik qızışdırıcı bəyanatlarla çıxış edən Ermənistanın baş naziri vəziyyəti müharibə həddinə gətirib çıxardı. Bilirəm ki, Azərbaycan Prezidenti problemin sülh yolu ilə həlli üçün bütün səyləri göstərib. Amma səbrin də bir həddi var. Qısa müddət ərzində torpaqlarını işğaldan azad edən Azərbaycan Ordusunun rəşadətinə heyran qaldım. Bu, tarixə qızıl hərflərlə yazılacaq bir Zəfərdir. Bir daha Azərbaycan xalqını və onun lideri İlham Əliyevi təbrik edirəm. Misirlilər dost və qardaş azərbaycanlıların Qələbə sevincini bölüşürlər.

Misirli professor vurğulayıb ki, Azərbaycan ərazisində olan İslam mədəni irs abidələrinin, məbədlərin ermənilər tərəfindən təhqir olunması videokadrları Misir ziyalılarını da məyus edib. "Misirlilər də azərbaycanlılar kimi tolerant xalqdır. Biz Misirdə İslam abidələri, məscidlərlə yanaşı, yəhudi sinaqoqları, xristian kilsələri, xüsusən qədim qibti xristianların məbədlərini qoruyur, onları bərpa edirik. Azərbaycan da öz məscidlərini, həmçinin sinaqoq və kilsələri dövlət səviyyəsində qoruyur. Lakin ermənilərin məscidləri təhqir etməsi heç bir insanlıq meyarına sığmır. Mən Səlahəddin Əyyubini niyə misal çəkdim? Çünki bu tarixi şəxsiyyət də məscidləri dağıdan səlib yürüşü iştirakçılarına qarşı döyüşüb və onlara qalib gəlib. O da humanistlik nümayiş etdirərək xristian abidələrinə, kilsələrə toxunmayıb, onları mühafizə edib", - deyə Əbdülrəhman Saad vurğulayıb.

# Azərbaycan ilə müvafiq razılıq əsasında Rusiya tərəfindən Xankəndiyə göndərilən humanitar yük Gəncə beynəlxalq hava limanına çatdırılıb



Azərbaycan Respublikası ilə müvafiq razılıq əsasında Rusiya Federasiyası tərəfindən Xankəndiyə çatdırılması məqsədilə göndərilən humanitar yük dekabrın 6-da Gəncə beynəlxalq hava limanına çatdırılıb.

AZƏRTAC xəbər verir ki, humanitar yardım müəyyən edilmiş Gəncə-Bərdə-Ağdam-Xankəndi marşrutu üzrə avtomobil yolu ilə yola salınıb.

# Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi cinayətlər nəticəsində həlak olanların sayı 100-ə çatıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu sentyabrın 27-dən dekabrın 7-dək olan müddətdə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın dinc əhalisinə qarşı törədilmiş cinayətlərin yeni statistikasını açıqlayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 100 nəfər həlak olub, 416 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 4186 ev, 135 çoxmənzilli yaşayış binası və 548 mülki obyekt yararsız vəziyyətə düşüb.

# Ermənistan vətəndaş müharibəsinə gedir

***Əvvəli 1-ci səh.***

## Paşinyana istefa üçün vaxt verilib

Növbədənkənar parlament seçkilərinin keçirilməsini tələb edən müxalifət Paşinyana istefa verməsi üçün üç gün vaxt verib. Əks təqdirdə kütləvi aksiyaların dayanmayacağı və vətəndaş qarşıdurmasının baş verəcəyi bildirilir.

Ermənistanda N.Paşinyanın yerinə müxalifətin vahid namizədi isə sabiq baş nazir və müdafiə naziri Vazgen Manukyandır. Vazgen Manukyan 1990-1991-ci illərdə Ermənistanın baş naziri, 1992-ci ildən 1993-cü ilə qədər müdafiə naziri olub, eyni zamanda ölkənin hərbi - sənaye kompleksinə başçılıq edib. O, müharibənin davam etdiyi günlərdə N.Paşinyan hökumətini hakimiyyəti hərbçilərə verməyə çağırmışdı. Manukyan öz müraciətində ölkədəki vəziyyəti erməni tarixinin ən rüsvayçı və dağıdıcı səhifələrindən biri kimi qiymətləndirmişdi. Bu, Paşinyanın hakimiyyətdən dinc yolla kənarlaşdırılması ilə bağlı ikinci cəhd idi. Birinci cəhd oktyabrın 17-də (müharibənin 20-ci günündə) olmuşdu. Öncə 13 partiya, sonra isə 16 partiya birgə bəyanatla çıxış etmişdilər. Bəyanatda Ermənistanın və Qarabağ separatçılarının keçmiş və indiki prezidentləri, baş nazirlər və xarici işlər nazirlərinin iştirakı ilə operativ qərargahın formalaşdırılması təklif olunurdu. O zaman Paşinyan 16 partiyanın hücumuna reaksiya verməyib, "Qarabağı xilas etməyə" hazırlaşan eks-prezidentlər Robert Koçaryan və Serj Sarkisyanın fəal hərəkətlərinə qarşı çıxmışdı.

Erməni politoloq Nikolay Petrosyan bildirib ki, müxalifətin mitinqi ilə bağlı təəssüratlar bununla bitir və qalan hər şey tam məyusluq doğurur. Vazgen Manukyan Rusiya ilə müttəfiqlik əlaqələrinin möhkəmləndiyini, antitürk koalisiyasına daxil olmağa çalışdığını bəyan edir, halbuki bu, əslində, bir-birini inkar edən hərəkətlərdir. Təəssüf ki, bu, müxalif namizəd üçün aydın deyil. Yenə təəssüf ki, Vazgen Manukyan hökumətə namizədlərin adlarını çəkməyib və Ermənistanın çoxsaylı problemlərinin necə həll ediləcəyinə dair fikirlərini açıqlamayıb. Nikol Paşinyanın mahiyyətinə görə boş olan "yol xəritəsi" müxalifətin deklarativ bəyanatlarından daha məzmunlu sənəd kimi görünür.

Politoloq deyib ki, Paşinyan istefa verməlidir, amma əvəzinə Manukyan gəlsə, Ermənistanda yenə hər şey əvvəlki kimi olacaq: "Güman edirəm ki, intellektual elitanın nümayəndələrinin iştirakı ilə hüquqi sahədə geniş siyasi və ictimai müzakirələrə ehtiyac var. Kütlənin dəyişən əhvali-ruhiyyəsinə güvənmək yetər".

## Ter-Petrosyan vəziyyətin təhlükəli olduğunu bildirir

Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan isə Nikol Paşinyanın istefası tələbi ilə keçirilən mitinqi şərh edərkən yazıb ki, Vazgen Manukyanın rəhbərlik etdiyi etirazlar ölkədə vətəndaş müharibəsinin təhlükəsi ilə bağlı narahatlığı artırıb.

Sabiq prezident "ilur.am" saytında dərc olunan məqaləsində qeyd edib ki, onu bu fikrə düşməyə Manukyanın mitinq zamanı səsləndirdiyi bir sıra bəyanatlar sövq edib. Nikol Paşinyan da başa düşməlidir ki, o, nə qədər tez istefaya gedərsə, bir o qədər yaxşıdır. Manukyan Paşinyanı qovmağın iki üsulunu nəzərdə tutur: könüllü və ya zorla. O, zorakılıq barədə bəyan etdi. Əgər bunlar sadəcə söz olsaydı, narahat olmağa xüsusi ehtiyac olmazdı. Ancaq Manukyanın rəhbərlik etdiyi izdihamlı yürüşlə baş nazir iqamətgahının yarım saatlıq mühasirəsi və Paşinyan ailəsini qorxutmaq kimi bir hərəkət, zorakılığa açıq hazırlıq nümayişindən başqa bir şey deyil. Əgər bu, münaqişə tərəflərindən yalnız birinin mövqeyi olsaydı, yenə böyük təhlükə doğurmazdı.

Ter-Petrosyan baş nazirin mövqeyini də eyni dərəcədə təhlükəli hesab edir. Sonuncunun ritorikası və davranışı onun getmək istəmədiyini və qarşıdurmaya hazır olduğunu göstərir. Hər iki tərəf qətiyyətli mövqedədirsə, münaqişə qaçılmazdır. Məgər aydın deyil ki, Paşinyan da, Manukyan da öz intellektinə görə olmasa da, inadkarlığına, təbiətinə, avantürist meyillərinə və sona qədər getmək maniyasına görə əkizdirlər? Bəyəm ictimaiyyət unudub ki, onların hər ikisinin parlamentə "hücum" təcrübəsi var - 1996-cı ildə Manukyanın, 2018-ci ildə isə Paşinyanın?! 2018-ci ildə Serj Sarkisyan güzəşt edərək hakimiyyəti leqal yolla Nikol Paşinyana verdi. Yeri gəlmişkən, təəssüf ki, bununla Qarabağ probleminin kompromis həlli üçün daha bir şans qaçırıldı, çünki Serj Sarkisyan yenidən seçildikdən dərhal sonra Lavrovun planını imzalamağa hazır idi, bu da Paşinyan tərəfindən imzalanmış üçtərəfli bəyanata nisbətən böyük bir qələbə olacaqdı.

Sabiq prezident vurğulayıb ki, Vazgen Manukyanın diqqətsiz şəkildə ifadə etdiyi və Ermənistan üçün dağıdıcı nəticələrə gətirib çıxara biləcək təhlükəli düşüncəsinə istinad etməyə bilmərəm: "Türkiyəyə qarşı ittifaq yaradılsa, biz bu ittifaqda olacağıq. Sual yaranır: Bəs Rəfael İşxanyanın "Üçüncü qüvvənin istisna edilməsi haqqında" qanunu hardadır? Belə çıxır ki, Antanta ölkələrinin antitürk müttəfiqliyinə güvənərək, Atatürkçü Türkiyə ilə Rusiyanın yaxınlaşmasına qarşı çıxaraq yalnız Ermənistanı deyil, digər torpaqları da itirdiyimiz vəziyyətə qayıdırıq. Manukyan həqiqətənmi başa düşmür ki, Ermənistanın hələ qurulmamış hər hansı bir antitürk müttəfiqliyinə qoşulmağa hazır olduğunu ifadə edərkən, tamhüquqlu rus-türk qarşılıqlı anlaşma həqiqətinə qarşı çıxırıq və bu, təkcə Türkiyəyə deyil, dostumuz - Rusiyaya da meydan oxuduğumuzu göstərir?! Bu yazı ilə Vazgen Manukyana qarşı çıxmıram və Nikol Paşinyana dəstək olduğumu bildirmirəm. Ermənistanın və Qarabağın biabırçı və alçaldıcı məğlubiyyətini nəzərə alaraq Paşinyan rejimi dərhal getməlidir".

## Ermənistan prezidenti "Hayastan" fondunun auditini tələb edir

Bu gün korrupsiya Ermənistanın bütün həyat sferalarında kifayət qədər dərin kök salıb və artıq ölkənin milli təhlükəsizliyinə də böyük təhdid yaradır. Belə vəziyyət sadə vətəndaşların mövcud hakimiyyətdən duyduğu narazılığın daha kəskin xarakter almasına, hətta sosial partlayış həddinə qədər yüksəlməsinə gətirib çıxarır. Bütün məmur ordusu korrupsiya piramidasında yer aldığından bu problemə qarşı mübarizə yalnız kağız üzərindədir və vaxtaşırı verilən quru vədlərdən ibarətdir. Korrupsiyaya qarşı strategiya hazırlansa da, təbliğat kampaniyaları aparılsa da, məmur oliqopoliyası reallıqda bu problemə qarşı hər hansı mübarizənin aparılmasına imkan vermir, əksinə daha çox var-dövlət toplamaq üçün istənilən qanunsuzluğa yol verməkdən çəkinmir.

Bu arada Ermənistan prezidenti, "Hayastan" Ümumerməni Fondunun Qəyyumlar Şurasının sədri Armen Sarkiskyan fondun xərclərinin beynəlxalq auditinin təşkil edilməsinin vacibliyini vurğulayıb. Belə bir müraciətin səbəbi fond rəhbərliyinin Qarabağdakı müharibə zamanı yığılan vəsaitin böyük hissəsini hökumətin hesabına köçürməsi barədə qərarı olub. Noyabr ayında fondun səhiyyə xərclərini maliyyələşdirmək, infrastrukturları bərpa etmək və Qarabağdakı müharibədən zərər çəkmiş insanların sosial vəziyyətini yaxşılaşdırmaq üçün Ermənistan hökumətinə 52 milyard dram və yaxud 104 milyon dollardan çox pul köçürdüyü məlum olub.

Sarkisyanın müraciətində deyilib ki, belə bir qərar insanlar arasında dünyadakı ermənilər tərəfindən toplanan vəsaitlərin xərclənməsinin səmərəliliyi ilə bağlı bir çox suallar yaratdı: "Bu isə fondun nüfuzunu sarsıda və quruma olan inam itkisinə səbəb ola bilər. Ona görə də hesab edirik ki, fondda beynəlxalq yoxlamaya ehtiyac var".

Beləliklə, qeyd edilənlər Ermənistanın üzləşdiyi ümumi böhranın daha da dərinləşəcəyindən xəbər verir və işğalçı ölkənin indi daha böyük sürətlə öz məhvinə doğru sürükləndiyini göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi 2 Nömrəli Bakı Baza Tibb Kolleci
2020-ci ildə Maşın və avadanlıqların alınması üzrə kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 09.12.2020-ci il saat 10:00-a kimi qəbul olunur.
Əlaqə nömrəsi: 012 431 16 59

Tender komissiyası

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC 2020-ci il üçün

## *kotirovka sorğusu elan edir*

Aşağıda göstərilən xidmətlər üzrə qiymətlərin elan olunması:
- Avtomobil nəqliyyat vasitələrinin satın alınması üzrə.

| Sıra №si | Malların adı | Sayı | Vahidi |
|---|---|---|---|
| 1 | Avtomobil | 2 | ədəd |
| | Texniki göstəriciləri | | |
| | Mühərrik həcmi | 1.6 - 2.0 | litr |
| | Maksimal güc | 80 | at gücü |
| | Sürətlər qutusu | Mexaniki | |
| | Yanacaq çəninin həcmi | 50 | litr |
| | Hidravlik sükan | + | |
| | ABS | + | |
| | Mərkəzi kilid sistemi | + | |
| | Hava Yastığı | + | |
| | Park radar | + | |
| | Ötürücü tipi | Tam (4x4) | |
| | Qapıların sayı | 5 | |
| | Kondinsioner | + | |

Kotirovka sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 10 dekabr 2020-ci il (saat 13:00) tarixədək qəbul olunur.

Tələb olunan sənədlər:
- nizamnamənin surəti (notarial qaydada təsdiq olunmuş);
- kommersiya hüquqi şəxsinin rekvizitləri (möhürlənmiş və imzalanmış şəkildə);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında məlumat (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- vergi uçotu haqqında arayış (ƏDV ödəyicisi olmayan təşkilatlar üçün);
- satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması (malgöndərən təşkilatın kommersiya qurumunun dövlət reyestrindən çıxarışlarının və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti);
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin olması barədə məlumat (malgöndərən təşkilat tərəfindən hazırlanır);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından).

**Ünvan: AZ1005 Bakı şəh. Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13. Əlaqələndirici şəxs: Nəsimi Kərimzadə.**
**Telefon: (+99451) 207-59-12, (+99412) 497-41-70**

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsi ilə "Sahil" kollektorunun 13 saylı şaxtasında təmir-bərpa işlərinin aparılması üçün 10 saylı istismar şaxtasında hidro-konstruktiv şiberin quraşdırılması işlərinin satın alınması üzrə

## *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3(üç) il üzrə işlərin, mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş müqavilələr. 1(bir) müqavilə təqdim edildiyi təqdirdə 10 balla, 2(iki) müqavilə təqdim edildiyi təqdirdə 20 balla, 3(üç) və yuxarı sayda müqavilə təqdim edildiyi təqdirdə 30 balla qiymətləndiriləcəkdir və ən aşağı qiymət təklifi.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 300 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **29 dekabr 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **11 yanvar 2021-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsi ilə təqdim etməlidirlər. Elektron satınalmanın açılışı **12 yanvar 2021-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən kargüzarlıq işlərinin həyata keçirilməsi məqsədilə qeyd olunan nümunələrə və saya uyğun olaraq ştampların satın alınması ilə bağlı 04.12.2020-ci ildə keçirilən kotirovka sorğusunda "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci bəndinə əsasən, iddiaçıların sayı 3 (üç)-dən az olduğuna görə baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***

## "Azərişıq" ASC "Müxtəlif tipli transformator üçün tanıdıcı metal lövhənin" satın alınması üzrə

## kotirovka sorğusu keçirir

Kotirovka sorğusu müsabiqəsində iştirak etmək istəyən iddiaçılar öz sənədlərini 11 dekabr 2020-ci il saat 15:00-dək aşağıdakı ünvana təqdim etməlidirlər.

Zərflər 14 dekabr 2020-ci ildə saat 15:00-da aşağıda qeyd olunan ünvanda açılacaqdır.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi, 130. Əlaqə telefonu (012) 440-39-93 (28-15)

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi kargüzarlıq işlərinin həyata keçirilməsi məqsədilə qeyd olunan nümunələrə və saya uyğun olaraq ştampların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğularında iştirak etmək üçün sənədlər 11 dekabr 2020-ci il saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin "məkan bayraqlarının" kotirovka üsulu ilə satın alınması üzrə 07 dekabr 2020-ci il tarixli yekun protokoluna əsasən, **"Antaris" QSC** qalib elan edilmişdir.

Qalib təşkilatla 07 dekabr 2020-ci ildə müqavilə imzalanmışdır.

Ünvan: AZ1005 Bakı şəh. Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13. Əlaqələndirici şəxs: Firudin Məsməliyev.

Telefon: (+99412) 497-41-70

***Tender komissiyası***

# Ağdam Rayon Polis Şöbəsi işğaldan azad olunmuş ərazilərdə xidməti fəaliyyətini bərpa edib





Müzəffər Azərbaycan Ordusunun keçirdiyi əks-hücum əməliyyatları nəticəsində işğaldan azad edilmiş ərazilərdə Daxili Qoşunların hərbi qulluqçuları və polis əməkdaşları tərəfindən təhlükəsizlik tədbirləri gücləndirilir.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, Ağdam Rayon Polis Şöbəsinin əməkdaşları işğaldan azad edilmiş Ağdam şəhərində və kəndlərində xidməti fəaliyyətini bərpa edib. Daxili Qoşunların hərbi qulluqçuları və polis əməkdaşları tərəfindən postlar qurulub və təhlükəsizliyə tam şəkildə nəzarət olunur.

## ÜMUMDÜNYA ANTİDOPİNQ MƏCƏLLƏSİ BEYNƏLXALQ STANDART QADAĞAN EDİLMİŞ SİYAHI 2021

**Bu siyahı 1 Yanvar 2021-ci ildən qüvvəyə minir.**

### MÜNDƏRİCAT

Nəzərə alın ki, aşağıda verilmiş xəstəlik nümunələri siyahısı tam deyil.

**Giriş**

**HƏR ZAMAN QADAĞAN EDİLMİŞ MADDƏ VƏ ÜSULLAR**

**S0 Təsdiq edilməmiş maddələr**

**S1 Anabolik agentlər**
Bu maddələrin bir qismi məhdudiyyət olmadan, məsələn kişi hipoqonadizminin müalicəsi zamanı istifadə olunan dərman vasitələrinin tərkibində ola bilər.

**S2 Peptid hormonları, böyümə faktorları, onlara oxşar maddələr və mimetiklər**
Bu maddələrin bir qismi məhdudiyyət olmadan, məsələn anemiya, kişi hipoqonadizmi, böyümə hormonu çatışmazlığının müalicəsi üçün istifadə olunan dərman vasitələrinin tərkibində ola bilər.

**S3 Beta - 2 aqonistlər**
Bu maddələrin bir qismi məhdudiyyət olmadan, məsələn astma və digər tənəffüs pozğunluqlarının müalicəsi üçün istifadə olunan dərman vasitələrinin tərkibində ola bilər.

**S4 Hormon və metabolik modulyatorlar**
Bu maddələrin bir qismi məhdudiyyət olmadan, məsələn süd vəzi xərçəngi, diabetlər, sonsuzluq (qadın), polikistoz yumurtalıq sindromunun müalicəsi üçün istifadə olunan dərman vasitələrinin tərkibində ola bilər.

**S5 Diuretiklər və gizlədici agentlər**
Bu maddələrin bir qismi məhdudiyyət olmadan, məsələn ürək çatışmazlığı, hipertoniya müalicəsi üçün istifadə olunan dərman vasitələrinin tərkibində ola bilər.

**QADAĞAN EDİLMİŞ ÜSULLAR M1-M2-M3**

**YALNIZ YARIŞ MÜDDƏTİNDƏ QADAĞAN EDİLMİŞ MADDƏ VƏ ÜSULLAR**

**S6 Stimullaşdırıcılar**
